№ 235 (5517), 2021-ci il

Qiymәti 40 qәpik

ŞƏRQ

Günәş Şәrqdәn doğur!

www.sherg.az 23 dekabr 2021-ci il (cümә axşamı)

# Azәrbaycan Ordusunun әsgәri vәfat edib

## Hadisә ilә bağlı araşdırma aparılır



**Azәrbaycan Ordusunun hәrbi qulluqçusu vәfat edib.**

**Bu barәdә "Şәrq" Müdafiә Nazirliyinә istinadәn xәbәr verir.**

Mәlumata görә, müddәtdәn artıq hәqiqi hәrbi xidmәt hәrbi qulluqçusu әsgәr Sәfәrov Daşqın Natiq oğlu hәrbi xidmәtdәn kәnarda olarkәn kәskin ürәk vә ağciyәr çatışmazlığından Şәmkir rayonu әrazisindә yerlәşәn mülki xәstәxanada dünyasını dәyişib. Hadisә ilә bağlı araşdırma aparılır.

"Müdafiә Nazirliyinin rәhbәrliyi hәrbi qulluqçunun ailәsinә vә yaxınlarına dәrin hüznlә başsağlığı verir", - mәlumatda qeyd edilir.

## Türkiyә ordusu Suriyada on terrorçunu zәrәrsizlәşdirib



**Türkiyә Silahlı Qüvvәlәri Suriyanın şimalında davam edәn antiterror әmәliyyatları çaçivәsindә 10 terrorçunu zәrәrsizlәşdirib.**

Trend-in mәlumatına görә, bunu ölkәnin Milli Müdafiә Nazirliyi bildirib.

Qeyd olunub ki, bir qrup PKK terrorçusu türkiyәli hәrbçilәrin mövqelәrinә hücum etmәyә cәhd göstәrib. Hücumun qarşısı alınıb vә 10 nәfәr zәrәrsizlәşdirilib.

Bölgәdә antiterror әmәliyyatları davam etdirilir.



# Karantin rejiminin müddәti martın 1-nә qәdәr uzadıldı

## Baş nazir Əli Əsәdov qәrarı imzalayıb

**Nazirlәr Kabineti Azәrbaycan Respublikasının әrazisindә xüsusi karantin rejiminin müddәtinin uzadılması barәdә qәrar verib.**

Baş nazir Əli Əsәdovun imzaladığı qәrarda qeyd edilir ki, koronavirus (COVID-19) infeksiyasının ölkә әrazisindә yayılmasının, onun törәdә bilәcәyi fәsadların qarşısının alınması mәqsәdilә Azәrbaycan Respublikasının әrazisindә xüsusi karantin rejiminin müddәti 2022-ci il 1 mart saat 06:00-dәk uzadılsın.

Bundan әvvәl xüsusi karantin rejiminin qüvvәdә olma müddәti 2022-ci il yanvarın 1-dәk nәzәrdә tutulurdu.



# Moskvada liderlәrin görüşü gözlәnilir

## Yekun sülh sazişinin müzakirәsi tәşkil edilә bilәr

**"Ermәnistan mediası Prezident İlham Əliyevlә Baş nazir Nikol Paşinyanın ilin sonuna kimi Moskvada görüşә bilәcәyini yazır. Görüşün mümkünlüyü hәm dә Soçi razılaşmasının praktiki mәrhәlәyә keçirilmәsi baxımından gözlәnilәndir".**

*Bu barәdә "Şәrq"ә açıqlamasında siyasi şәrhçi Asif Nәrimanlı deyib. Analitik bildirib ki, Soçidә sәrhәdin delimitasiya vә demarkasiyası üzrә razılaşma әldә olunub:*

"Kommunikasiya ilә bağlı İrәvanın etirazı prosesi Brüssele qәdәr daşıyıb vә Avropa masasında bu mәsәlә әtrafında fikir ayrılığı nәzәri baxımdan olsa da aradan qalxıb. İrәvan Zәngәzur dәhlizinә post quracağını deyir.

(sәh.3)

# Azәrbaycanla İran arasında önәmli razılaşmalar әldә olunub

## "Region ölkәlәrinin bölgәdәki problemlәri hәll etmәsi üçün kifayәt qәdәr gücü var"




**"44 günlük müharibәdә İranın mәsәlәnin әrazi bütövlüyü daxilindә, işğala son qoyulması ilә hәllinә dair mövqeyi Azәrbaycan tәrәfindәn dәstәklәnib".**

Bunu Azәrbaycanın xarici işlәr naziri Ceyhun Bayramov İranın xarici işlәr naziri Hüseyn Əmir Abdullahian ilә keçirilәn görüşdәn sonra tәşkil olunan brifinqdә söylәyib.

Nazir diqqәtә çatdırıb ki, artıq regionda yeni iqtisadi artım imkanları var. Bu şәrait bütün bölgә ölkәlәri üçün faydalı olacaq.

Ceyhun Bayramov xatırladıb ki, uzun illәr әrzindә işğal altında olmuş Ermәnistanla sәrhәd Azәrbaycanın әrazi bütövlüyünü tәmin etmәsi ilә bәrpa olunub.

"Münaqişәdәn qısa müddәt keçmәsinә baxmayaraq, regionda birgә iştirak edәrәk 3+3 platformasını yarada bilәrik.

(sәh.2)

# Kәlbәcәr möhtәşәm olacaq

## İlkin mәrhәlәdә 200 ailәnin köçürülmәsi planlaşdırılır



**Kәlbәcәr şәhәrinin layihәsi artıq hazırdır.**

Kәlbәcәrin bәrpa vә quruculuq, bütün infrastruktur layihәlәrin icrasından sonrakı görüntüsü yayılıb. Burada Eko kәnd, turistik bölgә, yaşayış komplekslәri, seyrangah teras kompleksi, şәhәr mәrkәzindә inzibati binaların tikintisi ilә yanaşı 1000 nәfәrlik tam orta mәktәbin, 350 nәfәrlik kollecin inşası nәzәrdә tutulur.

İlkin mәrhәlәdә 200 ailәnin köçürülmәsi planlaşdırılır.

# "Bacım qızının başına daş düşsün"

## Abid Şәrifov işdәn çıxarılan direktor qohumu haqda sәrt danışdı



**Bir neçә gün bundan әvvәl rәhbәrlik etdiyi mәktәb müәllimlәrinә sәs ataraq rüşvәt yığması ilә bağlı sәs yazısı yayılan mәktәb direktoru Ceyran Kuliyevanın baş nazirin keçmiş müavini Abid Şәrifovun bacısı qızı olması haqda xәbәr vermişdik.**

*Mәsәlә ilә bağlı Manset.az Baş nazirin keçmiş müavini Abid Şәrifovla әlaqә saxlayıb. O saytımıza açıqlamasında belә halları pislәyib.*

"Belә hallar tәbii ki, pisdir. Heç kәs rüşvәt almamalıdır, tәmiz işlәmәlidir. Mәnim bacım qızının başına daş düşsün, sәhv edib, işdәn çıxarılıb. Kim sәhv edirsә, işdә nöqsanlara yol verirsә, onu vәzifәsindәn azad etmәk lazımdır".

# Bitmiş savaş...

## Qarabağın qara bağını Azәrbaycan özü açıb

**Rusiya Prezidenti Vladimir Putin vә Fransa rәhbәri Emmanuel Makron arasında telefon danışığı olub. Kremlin mәlumatına görә, telefon danışığı zamanı Rusiya vә Fransa liderlәri Avropa qitәsindә sabitliyin vә tәhlükәsizliyin möhkәmlәndirilmәsi mәsәlәlәrinin müzakirәsini davam etdiriblәr.**

Fikir mübadilәsi zamanı Qarabağda vәziyyәtin sabitlәşmәsi, regionda dinc hәyatın bәrqәrar olması, iqtisadi vә nәqliyyat әlaqәlәrinin bәrpası istiqamәtindә göstәrilәn sәylәrdәn mәmnunluq ifadә olunub. Bildirilib ki, Rusiya vә Fransa bu mәsәlәlәr üzrә fәaliyyәt göstәrir vә gәlәcәkdә dә sinxron fәaliyyәt göstәrmәk niyyәtindәdir.

(sәh.4)



# Daha 648 yeni yoluxma faktı qeydә alınıb

## 16 nәfәr vәfat edib, 1 365 nәfәr sağalıb

**Azәrbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 648 yeni yoluxma faktı qeydә alınıb, 1 365 nәfәr müalicә olunaraq sağalıb.**




Nazirlәr Kabineti yanında Operativ Qәrargahdan "Şәrq"ә verilәn mәlumata görә, COVID-19 üçün götürülәn analiz nümunәlәri müsbәt çıxmış 16 nәfәr vәfat edib.

*İndiyәdәk ölkәdә ümumilikdә 612 205 nәfәrin koronavirus infeksiyasına yoluxması faktı müәyyәn edilib, onlardan 590 155 nәfәr müalicә olunaraq sağalıb, 8 238 nәfәr vәfat edib, aktiv xәstә sayı 13 812 nәfәrdir.*

# TURKOVAC vaksinin tәtbiqinә icazә verilib



**Türkiyәdә koronavirusa qarşı yerli TURKOVAC vaksinin tәtbiqinә icazә verilib, bu gündәn etibarәn vaksinin kütlәvi istehsalı başlayıb.**

Bunu Türkiyә prezidenti Rәcәb Tayyib Ərdoğan elan edib.

O, Şanlıurfa şәhәrindә baş tutmuş kütlәvi istehsal prosesinә başlanması mәrasiminә onlayn formatda qatılıb.

"Lazımi icazәlәri almaqla istehsal vә istifadә mәrhәlәsinә çatan TURKOVAC vaksini xalqımızı virusa qarşı qorumaq cәhdlәrimizin rәmzidir. Bundan sonra vәtәndaşlarımıza "Sinovac" vә "BioNTech"lә yanaşı, TURKOVAC da tәqdim olunacaq", - deyә o bildirib.



# Ərdoğan nöqtәni qoydu

## Müxalifәtin israrla növbәdәnkәnar seçki çağırışı baş tutmayacaq

(sәh.3)

# Ən uyğun çıxış yolu tapılmalıdır

## MİS-lәr lәğv olunursa, әvәzinә normal bir qurum yaradılmalıdır



(sәh.4)

# Marşrut daha tez ərsəyə gələcək

## Ermənistan Azərbaycanla dəmir yolunun çəkilişini reallaşdırmağa tələsir

**Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan üçtərəfli İşçi Qrupunun Arazdəyən-Horadiz dəmir yolunun mərhələli şəkildə açılmasını müzakirə etdiyini deyib.**

Onun sözlərinə görə, müzakirələrə çıxarılan variantlardan biri də Mehri və Mincivan-Horadiz hissələrində yeni dəmir yolunun çəkilməsini gözləmədən Naxçıvandan İrana kommunikasiyanın açılması məsələsi olub: ”Mövcud infrastrukturdan istifadə etməklə gerçəkləşdirilə biləcək hər hansı kommunikasiya xəttinin açılması imkanı, əlbəttə ki, bizim üçün arzuolunandır. Amma bu, danışıqların mövzusudur və hansı razılığa gələcəyimizi hələ deyə bilmərəm”. Qriqoryan vurğulayıb ki, Türkiyə ilə dəmir yolu xəttinin bərpası hələlik heç bir detala varmadan konseptual səviyyədə müzakirə edilir.



“Paşinyan yararsız ölkəsini regional habın bir hissəsinə çevirməkdə maraqlı görünür”

Ötən gün Gürcüstanda səfərdə olan Ermənistan Baş naziri Nikol Paşinyan da bildirib ki, qarşılıqlı razılaşmaya əsasən, Yerasx (Arazdəyən)-Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun tikintisi 2-3 il ərzində başa çatdırılmalıdır. Baş nazir həmçinin, avtomobil yolu əlaqəsinin də bərpa olunacağını deyib. Vurğulayıb ki, 340 kilometrlik dəmir yolunun yalnız 45 kilometri Ermənistan ərazisindən keçir və bu 45 kilometrlik xəttin inşasına, yaxud bərpasına 200 milyon dollar vəsait sərf olunacaq.

**Siyasi şərhçi Elçin Mirzəbəyli bildirib ki, dəmir yolunun çəkilişi relyefdən asılı olaraq, çətin, vəsait və vaxt tələb edən bir prosesdir.** Analitikin sözlərinə görə, dəmir yolu marşrutunun 295 kilometrinin Azərbaycan ərazisindən keçdiyini, işğaldan azad edilmiş ərazilərimizdə görülən işlərin sürətini nəzərə alsaq, bəhs edilən dəmir yolunun daha tez ərsəyə gələcəyini təxmin etmək mümkündür: ”Ermənistanın baş nazirinin ”200 milyon dollar”dan dəm vurmasını təsadüfi saymıram. Mesajın ünvanlandığı istiqamət tam bəlli olduqdan sonra prosesin inkişaf dinamikası barədə fikir söyləmək mümkün olacaq.

Nikol Paşinyanın Gürcüstanda Azərbaycanla Ermənistan arasında avtomobil yolunun işə salınmasından danışması da maraq doğurur. Diqqət çəkən məqam isə baş nazirin ”Şimal-Cənub” yolunun Ermənistan-İran sərhədindən Gürcüstan-Ermənistan sərhədinə qədər olan hissəsi ilə bağlı söylədikləridir. Nikolun mülahizələrinə görə, Azərbaycanla avtomobil nəqliyyatı əlaqəsi barədə razılaşmanın mümkün olacağı təqdirdə bu layihə, yəni ”Şimal-Cənub” yolu ”Şimal-Cənub”, ”Şərq-Qərb” marşrutuna çevriləcək. Ermənistanın baş nazirinin mülahizə və iddialarından belə anlaşılır ki, Azərbaycanla avtomobil yolu əlaqəsi qurulacağı təqdirdə, yük daşınmalarının bir hissəsi Ermənistan ərazisindən, Paşinyanın ”Şimal-Cənub” adını verdiyi yol üzərindən həyata keçiriləcək. Beləliklə də sözügedən yol həm də ”Şərq-Qərb” marşrutunun bir hissəsinə çevriləcək. Halbuki, həm Şimal-Cənub, həm də Şərq-Qərb nəqliyyat dəhlizlərinin ən qısa, iqtisadi baxımdan ən rentabelli marşrutları Azərbaycan ərazisindən keçir. Azərbaycanın logistik imkanları da bu marşrutlar arasında sinerjinin yaranmasına imkan verir. Belə olduğu təqdirdə, Ermənistanın heç bir iqtisadi əsas olmadan ”tranzit ölkəyə” çevrilməsinə də ehtiyac qalmır. Görünür, Nikol Ermənistanın olmayan imkanlarını yenidən piştaxta üzərinə çıxarmaqla, bu yararsız ölkəni regional habın bir parçasına çevirmək istəyir. Ola bilsin ki, dəmir yolunun tikintisinin və bərpasının 2-3 ilə başa gələcəyi barədə iddialar və ”200 milyon dollarlıq” mesaj da rəsmi İrəvanın hələlik təktərəfli bazarlığının tərkib hissəsidir”.

**İsmayıl**



# Aşqabad görüşü iki ölkə arasında dönüş nöqtəsi oldu

## Prezident İlham Əliyev İranın xarici işlər nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlətimizin başçısı Aşqabadda İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşünü xatırlatdı, bu görüş zamanı gələcək əməkdaşlıqla bağlı bir çox məsələlərin müzakirə edildiyini və Azərbaycan-İran dostluq əlaqələrinin bir daha təsdiqləndiyini bildirdi.

Hüseyn Əmir Abdullahian İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev İranın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

İranın xarici işlər naziri Prezident İlham Əliyevlə İran Prezidenti Seyid İbrahim Rəisinin Aşqabad görüşünə toxunaraq bu görüşü ölkələr arasında əlaqələrdə dönüş nöqtəsi kimi dəyərləndirdi.

Söhbət zamanı siyasi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulandı.

Görüşdə ikitərəfli əməkdaşlığımızın gündəliyinin geniş olduğu bildirildi və yaxşı nəticələrin əldə ediləcəyinə ümidvarlıq ifadə olundu.

# Tehran geosiyasi reallıqları qəbul edir

## İran məhz region ölkələri ilə əməkdaşlıq çərçivəsində iqtisadi inkişafa töhfə verə bilər



**”İran Xarici işlər naziri Ə.H.Abdullahianın ölkəmizə səfəri Tehran-Bakı əlaqələrinə impuls vermək məqsədi güdür”.**

*Bu barədə ”Şərq”ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.* Analitik bildirib ki, Qarabağ müharibəsindən sonra İranın Azərbaycana qarşı qeyri-konstruktiv siyasəti nəticəsində əlaqələr böhrana yuvarlanmışdı və bu böhranın başında birbaşa XİN rəhbəri Abdullahian dururdu. Lakin bir müddət sonra rəsmi Tehran Azərbaycanın yaratdığı geosiyasi reallıqları qəbul etdi: ”İran-Azərbaycan əlaqələri məhz Tehran tərəfindən pozulmuşdu. Ankara, Moskvanın basqıları, rəsmi Bakının obyektiv və geri çəkilməmək siyasəti Tehranı geri addim atmağa sövq etdi. Həmçinin İrana qarşı sanksiyalar və nüvə sazişinin həll edilməməsi, bu sanksiyaları inkişaf etdirməsi də əsas səbəblərdən biridir. İran məhz region ölkələri ilə əməkdaşlıq çərçivəsində iqtisadi inkişafa töhfə verə bilər. Bu da Azərbaycanla normal münasibətlərdən keçir. Hesab edirəm ki, nüvə sazişi ilə bağlı Qərblə İran arasında artan konfontrasiya və İsrailin İrana hücum təhdidləri Tehranın Rusiya, Türkiyə, Azərbaycan platformasına yaxınlaşmasına səbəb oldu”.

**Siyasi şərhçi xatırladıb ki, Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə toplantısında Türkmənistan qazının Avropaya ixracını nəzərdə tutan üçtərəfli müqavilə Tehran-Bakı əlaqələrində yeni mərhələyə keçidin əsasını qoydu:** ”İranda hakimiyyətdə mühafizəkarlardır və öz siyasətlərində dönüş edə bilərlər. Azərbaycan da buna hər an hazır olmalıdır. Rəsmi Bakı İrandan tələb etməlidir ki, dövlət sərhədində narkotik kuryerlerinə qarşı sərt addım atılsın. Digər yandan Tehran hökuməti Xəzər dənizinin hüquqi statusu ilə bağlı konvensiyanı ratifikasiya etsin. Ən əsası isə Azərbaycanda məzhəbçi siyasətə son qoysun”.

**İsmayıl Qocayev**

**“44 günlük müharibədə İranın məsələnin ərazi bütövlüyü daxilində, işğala son qoyulması ilə həllinə dair mövqeyi Azərbaycan tərəfindən dəstəklənib”.**

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian ilə keçirilən görüşdən sonra təşkil olunan brifinqdə söyləyib.

Nazir diqqətə çatdırıb ki, artıq regionda yeni iqtisadi artım imkanları var. Bu şərait bütün bölgə ölkələri üçün faydalı olacaq.

Ceyhun Bayramov xatırladıb ki, uzun illər ərzində işğal altında olmuş Ermənistanla sərhəd Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi ilə bərpa olunub.

”Münaqişədən qısa müddət keçməsinə baxmayaraq, regionda birgə iştirak edərək 3+3 platformasını yarada bilərik. İran və Rusiya bu təşəbbüsə ən tez dəstək verən ölkələrdir. Yaxın gələcəkdə bu prosesin müsbət davamını görəcəyik”, - deyən Azərbaycanın XİN rəhbəri vurğulayıb ki, işğaldan azad edilən ərazilərin yenidən qurulması və bərpası ən vacib məsələdir. İran yaxın və dost ölkə kimi azad olunmuş ərazilərdə reallaşdırılan layihələrə marağını ifadə edib.

”İşğaldan azad olunmuş ərazilərin bərpasında iştirak etmək üçün İran şirkətlərindən müraciətlər daxil olub. Hazırda İranın dövlət və özəl şirkətləri tərəfindən Qarabağ bölgəsində həyata keçirilməsi üçün layihələr təklif edilir. Bəzi layihələrin icrasına yaxın zamanlarda başlanılacaq”, - Bayramov deyib.




# Azərbaycanla İran arasında önəmli razılaşmalar əldə olunub

## “Region ölkələrinin bölgədəki problemləri həll etməsi üçün kifayət qədər gücü var”

Nazir bildirib ki, İran şirkətlərinin təcrübəsi, bu bölgəyə yaxın olması onlara üstünlük verir.

”Xudafərin” və ”Qız qalası” su elektrik stansiyalarının birgə istifadəsi məsələsinə toxunan C.Bayramov onların Araz çayı üzərində, sərhəddə yerləşməsinin hər iki ölkəyə xeyir verəcəyini diqqətə çatdırıb.

”Biz son 4 ayda çox sıx əlaqə qurmuşuq, üç görüşümüz, mütəmadi telefon danışıqlarımız olub. Bu gün Prezident İlham Əliyevlə görüşümüz çox uğurlu keçdi və iki ölkə arasında əhəmiyyətli razılaşmalar əldə edildi. Bu razılaşmalar münasibətimizi daha da gücləndirəcək və inanıram ki, yaxın gələcəkdə öz səmərəsini verəcək”, - İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian söyləyib.

Azərbaycanı ərazilərini işğaldan azad etməsi münasibətilə təbrik edən Hüseyn Əmir Abdullahian İranın ölkəmizi ən yaxın dostlarından biri hesab etdiyini vurğulayıb.

O bildirib ki, ölkələrimiz regional və beynəlxalq müstəvidə bir-birini dəstəkləyir.

Azərbaycan, Rusiya, Türkiyə və İran arasında yeni platformanın yaranacağını qeyd edən nazir bildirib ki, region ölkələrinin bölgədəki problemləri həll etməsi üçün kifayət qədər gücü var.

”İran müharibədən sonrakı təcrübəni nəzərə alaraq yenidənqurma layihələrində iştirakda maraqlıdır. Nəqliyyat-tranzit, habelə hərbi və siyasi sahələrdə əməkdaşlığımız davam edəcək”, - deyə İran XİN-in başçısı qeyd edib.

# MDB dövlət başçıları bir araya gələcək

## Görüşdə mühüm sənədlərin imzalanacağı gözlənilmir

**Dekabrın 28-də Rusiyanın Sankt-Peterburq şəhərində Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin dövlət və hökumət başçılarının qeyri-rəsmi zirvə görüşü keçiriləcək.**



Bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib. İlkin məlumata görə, qeyri-formal sammitə Rusiya Prezidenti Vladimir Putin sədrlik edəcək. MDB dövlət başçılarının Yeni il ərəfəsində Sankt-Peterburqda qeyri-formal sammiti pandemiyaya qədər mütəmadi keçirilib.

Qeyd edək ki, MDB 1991-ci ildə yaradılıb. Birliyə 9 ölkə - Rusiya, Azərbaycan, Qazaxıstan, Belarus, Ermənistan, Qırğız Respublikası, Moldova, Tacikistan və Özbəkistan daxildir.

Sankt-Peterburqda keçiriləcək görüşlə bağlı ”Şərq”ə açıqlama verən siyasi şərhçi Samir Hümbətov bildirib ki, bu görüşdə Azərbaycan lideri İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan sülh məsələsini müzakirə edə bilər: ”Dekabrın 28-də Rusiyada MDB liderlərinin qeyri-formal görüşündə Azərbaycanı Avrasiya İttifaqına üzv ölkə olmağa dəvət edilə bilər. Rusiya Azərbaycan və Ermənistan arasında sülh yaradılmamış kommunikasiya və digər bəzi məsələləri gündəmə gətirir. Bu görüşdə mühüm sənədlərin imzalanacağına inanmıram. Zənnimcə, toplantıda Ermənistan və Azərbaycan rəhbərlərinin görüşü baş tutacaq. Paşinyan bu yaxınlarda qeyd edib ki, Soçi və Brüssel görüşündə Azərbaycanla Ermənistan arasında avtomobil yolunun çəkilməsi ilə bağlı razılıq əldə edilib. Əlavə olaraq, Ermənistanın baş naziri bildirib ki, tezliklə Azərbaycanla sülh məsələsi müzakirə edilə bilər. Buradan görünür ki, üçüncü görüş mütləq təşkil ediləcək”.

**Xanlar Əlibəy**



# Türkiyə çeçen xalqına həmişə saygı göstərib

## “Putinin “şilləvuranına” çevrilmiş Ramzan Kadırov kimi şəxslər bunu anlaya bilməz”

**Ötən həftə Türkiyənin Kocaeli şəhərində keçmiş çeçen komandir Cövhər Dudayevin adını daşıyan parkın açılışı olub. Çeçenistan rəhbəri Ramzan Kadırov buna çox sərt reaksiya verib.**

O, Türkiyə hakimiyyətini Rusiyada cinayət törədən terrorçuları dəstəkləməkdə ittiham edib. Hətta Rusiya XİN-i bu ölkəyə qarşı diplomatik tədbirlər görməyə çağırıb. Kadırov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana da terrorçular barədə qərar vermək tələbi ilə müraciət edib: ”Ya siz terrorçuları açıq şəkildə dəstəkləyən dövlət statusu alacaqsınız, ya da Rusiyanın arxasından iş görməyən şəffaf və dürüst münasibətlərin tərəfdarı olacaqsınız”.

Kadırov qeyd edib ki, terrorçular Türkiyədə sığınacaq tapıb, açıq şəkildə tədbirlər keçirib, parka terrorçunun adının verilməsini istəyirlərsə, Çeçenistan da buna qarşılıq verə bilər: ”Məsələn, bu halda Kürdüstan Fəhlə Partiyasının (PKK terror təşkilatı - red.) qurucusu, Türkiyədə həbs cəzası çəkən Abdullah Öcalanın adının Qroznıda əbədiləşdirilməsi bizim tərəfdən olduqca siyasi və məntiqli addım olardı”.

**Ramzan Kadırovun Türkiyəni təhdid etməsinə münasibət bildirən Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib ki, Mustafa Kamal Atatürkün qurduğu Türkiyə Cümhuriyyəti Şərqin və türk-islam dünyasının azadlıq məkanıdır. Partiya rəsmisi bildirib ki, Türkiyə hər zaman çeçen xalqının azadlıq savaşına açıq və gizli dəstəyini göstərib:** ”Bu fakt hər bir çeçenin dəyərləndirdiyi və heç vaxt unutmadığı reallıqdır. Rus işğalına qarşı mübarizənin lideri, Qafqazın qəhrəmanlıq simvollarından biri olan Cövhər Dudayevin adına park salınması da çeçen xalqına göstərilən saygıdır. Putinin ”şilləvuranına” çevrilmiş Ramzan Kadırov kimi şəxslər bunu anlaya bilməz. Kadırov da, Kreml də unutmasın ki, hər şeyə rəğmən, çeçen xalqı içində azadlıq yanğısını hələ də qoruyub saxlayır. Qafqazın bu mübariz xalqı öz torpağında Öcalan kimi uşaq qatili terrorçuya heykəl qoyulmasını həzm etməz. Türkiyə bu cür təhdidlərə boyun əyəcək bir ölkə deyil”.

**İsmayıl Qocayev**

# Moskvada liderlərin görüşü gözlənilir

## Yekun sülh sazişinin müzakirəsi təşkil edilə bilər



“XİN rəhbərlərinin iştirakı bu ehtimalı önə çıxarır. İstisna deyil ki, Rusiya gələcəkdə imzalanması gündəmdə olan yekun sazişin vasitəçiliyini indidən üzərinə götürmək istəyir”

**“Ermənistan mediası Prezident İlham Əliyevlə Baş nazir Nikol Paşinyanın ilin sonuna kimi Moskvada görüşə biləcəyini yazır. Görüşün mümkünlüyü həm də Soçi razılaşmasının praktiki mərhələyə keçirilməsi baxımından gözləniləndir”.**

*Bu barədə ”Şərq”ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, Soçidə sərhədin delimitasiya və demarkasiyası üzrə razılaşma əldə olunub:* ”Kommunikasiya ilə bağlı İrəvanın etirazı prosesi Brüsselə qədər daşıyıb və Avropa masasında bu məsələ ətrafında fikir ayrılığı nəzəri baxımdan olsa da aradan qalxıb. İrəvan Zəngəzur dəhlizinə post quracağını deyir. Bakı əvəzində Laçın dəhlizində eyni rejimi tətbiq edəcəyini açıqlayır. Moskva isə susur. İstisna deyil ki, Zəngəzur dəhlizi boyunca dəmiryolu və avtomobil yolunun inşasına qədər ”dəhliz, yoxsa yol” prinsipi açıq saxlanılacaq. Bu, indiki halda bölgədə bütün tərəflərə sərf edir, çünki hazırda kommunikasiyanın bərpasında hər kəs maraqlıdır. Moskva görüşü ilə bağlı iddiada diqqət çəkən məqam görüşün geniş tərkibdə ola biləcəyinə dairdir. Danışıqlarda müdafiə nazirləri, üçtərəfli İşçi Qrupunun üzvləri və xarici işlər nazirlərinin də iştirak edəcəyi iddia olunur. Belə bir tərkibdə mümkün görüşün olması Moskva masasından ciddi gözləntilər yaradır”.

**Ekspertə görə, sərhədlə bağlı razılaşmada praktiki addım atıla bilər**: ”Müdafiə nazirlərinin iştirakı ilə delimitasiya müqaviləsinin imzalana biləcəyi ehtimalını önə çıxarır. Soçidə sərhədin delimitasiyası, ardınca demarkasiya üzrə ikitərəfli komissiyanın yaradılması razılaşdırıldı. Bu o deməkdir ki, delimitasiya - sərhədin xəritə üzərində çəkilməsi Rusiyanın iştirakı ilə həyata keçiriləcək və delimitasiya müqavilə imzalanacaq. Demarkasiya üzrə yaradılacaq ikitərəfli komissiya delimitasiya müqaviləsi əsasında sərhədi çəkəcək. Kommunikasiya üzrə Soçi və Brüssel razılaşmaları əsasında görüşəcək işlər konkretləşdirilə bilər. İşçi Qrupunun iştirakının bununla bağlı olacağı mümkündür. Yekun sülh sazişinin müzakirəsi təşkil edilə bilər. XİN rəhbərlərinin iştirakı bu ehtimalı önə çıxarır. İstisna deyil ki, Rusiya gələcəkdə imzalanması gündəmdə olan yekun sazişin vasitəçiliyini indidən üzərinə götürmək istəyir. Görüşün olacağı ilə bağlı heç bir rəsmi məlumat yoxdur. Lakin erməni mənbələrin əvvəlki görüşlə bağlı məlumatlarının bu və ya digər formada doğru çıxdığını, eləcə də proseslərin inkişafını nəzərə alsaq, ilin sonunda Moskvada masanın qurulacağı mümkün görünür”.

**İsmayıl**



# İctimai dinləmələrə bütün tərəflər qoşuldu

## “Media haqqında” Qanun layihəsinin növbəti müzakirəsi keçirilib

**22 dekabr 2021-ci il tarixində Medianın İnkişafı Agentliyində Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və İnsan hüquqları komitəsinin sədri Zahid Orucun iştirakı ilə ”Media haqqında” Qanun layihəsinin növbəti müzakirəsi keçirilib.**

Müzakirədə millət vəkili Qüdrət Həsənquliyev, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, Turan İnformasiya Agentliyinin baş direktoru Mehman Əliyev, ”Yeni Nəsil” Jurnalistlər Birliyinin sədri Arif Əliyev, APA İnformasiya Agentliyinin təsisçisi Vüsalə Mahirqızı, media hüququ üzrə ekspert Ələsgər Məmmədli, həmçinin bir sıra media subyektlərinin nümayəndələri çıxış ediblər.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov görüşdə səsləndirilən sualları ətraflı cavablandırıb, rəy və təkliflərə münasibətlərini bildiriblər.

*”Media haqqında” Qanun layihəsinin müzakirələri davam etdirilməkdədir.*

# Qış qapını döydü

## Ölkə havanın kəskin dəyişməsinə hazırdırmı?



## Bütün əlaqədar qurumlar gücləndirilmiş iş rejiminə keçib

**Xanlar ƏLİBƏY**

**Dünən saat 19:59:18-də Azərbaycana qış fəsli daxil olub. Bu zaman Yerin fırlanma oxu Günəş istiqaməti ilə ən böyük bucaq əmələ gətirir və ya Günəş həmin gün üfüqdən minimum hündürlükdə olur. Dünən ən qısa gündüz və ən uzun gecə müşahidə olunur.**

Qış fəsli özü ilə bərabər bəzi çətinlikləri də gətirir. Yolların buz bağlaması, gölməçələrin yaranması və bir sıra problemlərin baş verməsi halları hər il müşahidə olunur. Sakinlər ənənəvi problemlərin təkrar yaşanacağından narahatdır.

**”Şərq” saytı olaraq ”Azərişıq” ASC-yə, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə (AAYDA), ”Azəristiliktəchizat” ASC-yə, ”Azəriqaz” İstehsalat Birliyinə (İB), ”Azərsu” ASC-yə, Bakı Şəhər İcra Hakimiyyətinə (BŞİH) sorğu ünvanladıq. ”Azərsu” ASC və BŞİH zənglərimizə cavab vermədi.**

Sorğumuza cavab olaraq, ”AZƏRİŞIQ” ASC-nin ”Azərişıq” ASC-nin mətbuat xidmətinin rəhbəri Vaqif Aydınoğlu bildirdi ki, bu sahə üzrə genişmiqyaslı tədbirlər həyata keçirilib: ”Azərişıq” ASC respublika ərazisində qış mövsümündə istehlakçıları keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün genişmiqyaslı tədbirlər həyata keçirib. Artıq Səhmdar Cəmiyyətdə mövsümi xarakterli işlərin görülməsi tədricən tarixin arxivinə qovuşur. Həyata keçirilən yenidənqurma və bərpa işləri müasir metodlarla aparıldığından, bu tədbirlər bütün fəsillər üçün keçərlidir.

Qış mövsümü üçün yarımstansiyaların, paylayıcı qurğuların, kabel və hava elektrik verilişi xətlərinin normal və qəzasız iş rejiminin yaradılması məqsədilə ciddi və təxirəsalınmaz tədbirlər hələ yay aylarında həyata keçirilib. ”Azərişıq” ASC müasir elektrik enerjisi təchizatı sistemlərini elə formalaşdırır ki, təbiət hadisələri, kənar müdaxilə faktorları istehlakçıların fasiləsiz enerji təminatına daha az təsir etsin. Abonentlərimizin hər hansı bir sualı yaranarsa, dərhal 199 qısa nömrəsinə zəng edərək Çağrı Mərkəzi ilə əlaqə saxlasınlar. 24 saat fasiləsiz xidmət göstərən ”Qəza Xidməti”nin operativ müdaxiləsi nəticəsində baş verən nasazlıq qısa vaxt ərzində aradan qaldırılacaq. Paylayıcı şəbəkələrin yenilənməsi, gücləndirilməsi və müasirləşdirilməsi prioritet hədəflər olmaqla yanaşı, elektrik enerjisi itkilərinin azaldıması da xüsusi diqqətdə saxlanılır”.

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İctimaiyyətlə Əlaqələr şöbəsinin rəisi Anar Nəcəflinin verdiyi məlumata görə, payız-qış mövsümünə hazırlıq işləri tamamlanıb:**

Qeyd edim ki, agentlik olaraq payız-qış mövsümünə hazırlıq işlərinə oktyabr ayının 1-dən start vermişik. Tədbirlər planına uyğun olaraq müəyyən işlərin həyata keçirilməsinə start verilib. Ümumilikdə isə respublika üzrə 400-dən artıq sırf qarın təmizlənməsi və duz-qum ehtiyatının daşınması üçün maşın-mexanizm hazır vəziyyətə gətirilib və kifayət qədər duz-qum ehtiyatı toplanıb. Bakı şəhərində o qədərdə qış fəsli özünü büruzə verməsə də, regionlarda, rayonlarda, dağlıq və dağətəyi ərazilərdə artıq qarın yağması nəticəsində yolların buzlaşması müşahidə olunur. Bu kimi hallar baş verdikdə dərhal əraziyə müdaxilə olunur və problem qısa müddət ərzində aradan qaldırılır. Əgər ehtiyac olarsa, Bakı Şəhər İcra Hakimiyyətinə kömək məqsədi ilə maşın-mexanizmlərin cəlb edilməsi prosesində qarşılıqlı işlər həyata keçirə bilərik. Payız-qış mövsümünə hazırlıq, qarın təmizlənməsi və yollarda buzun əridilməsi istiqamətində işlərə tam olaraq hazırıq. Bu o demək deyil ki, hər hansı bir ərazidə problem müşahidə olunmayacaq. Təbii ki, qarın yağması yolların buzlaşması nəticəsində müəyyən problemlər ola bilər. Biz agentlik olaraq qısa müddət ərzində həmin problemin aradan qaldırılmasına çalışacağıq”.

**”Azəristiliktəchizat” ASC-nin Abonent və Müştəri Xidmətlərinin rəisi Rafiq Əliyev gücləndirilmiş iş rejiminə keçid edildiyini qeyd edib:**

”Hava şəraitinin kəskin dəyişəcəyi ilə bağlı edilən xəbərdarlıqla əlaqədar ”Azəristilik” təchizatın bütün qurumlarına gücləndirilmiş iş rejiminə keçilməsi haqqında müvafiq göstəriş verilib. Hazırda ”Azəristilik” təchizatın 563 qazanxanası və 88 istilik məntəqəsi nomral rejimdə fəaliyyətini davam etdirir. Həmin qazanxanalar vasitəsilə 3870 yaşayış binası və qazanxanaların xidmət zonalarına daxil olan bütün məktəb, uşaq bağçaları, səhiyyə müəssisələri və digər sosial və təsərrüfat obyektləri normal istiliklə təmin olunurlar. Gücləndirilmiş iş rejiminə keçilməsi ilə əlaqədər olaraq həmin günlərdə yaşayış binaları və sosial obyektlərdə istiliyə olan tələbatın artacağını nəzərə alaraq qazanxana və istilik məntəqələrində temperatur qrafikinə ciddi əməl olunması, gecə növbəsində çalışanların sayının artırılması, bundan başqa baş verə biləcək qəzaların operativ aradan qaldırılması üçün aidiyyəti xidmətlərin məsul şəxslərinə, öz xidmət sahələrində növbətçilik yaradılması ilə bağlı müvafiq tapşırıqlar verilib. Eyni zamanda 24 saat ərzində fasiləsiz rejimdə fəaliyyət göstərən mərkəzi dispetçer xidməti və 956 nömrəli çağrı mərkəzinin də həmin günlərdə işçilərinin sayının artırılması ilə bağlı göstəriş verilib. Vətəndaşlar yaranan problemlərlə bağlı ”Azəristilik” təchizatın ”956” çağrı mərkəzinə və ya rəsmi facebook səhifəsinə müraciət edə bilərlər”.

**”Azəriqaz” İstehsalat Birliyinin mətbuat katibi Eldəniz Vəliyev qurumun soyuq havalara qarşı hazırlıqlı olduğunu bildirib:**

”Qış aylarına xarakterik olan soyuq hava şəraitində ”Azəriqaz” İstehsalat Birliyinin əməkdaşlarının abonentlərə davamlı olaraq təhlükəsiz mavi yanacağın verilməsi ilə bağlı işləri mükəmməl formada təşkil olunub. Bizim mobil qruplar xeyli müddətdir ki, fəaliyyət göstərir. İstənilən müraciətə dərhal reaksiya veriləcək və problemin həlli istiqamətində işlər görüləcək. ”Azəriqaz” ASC-nin adekvat qüvvəsi var”.

**İsmayıl Qocayev**



# Ərdoğan nöqtəni qoydu

## Müxalifətin israrla növbədənkənar seçki çağırışı baş tutmayacaq

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hakim Ədalət və İnkişaf Partiyasının (AKP) iclasında son günlər ciddi müzakirə olunan növbədənkənar seçki müzakirələrinə nöqtə qoyub.**

Ərdoğan birmənalı bildirib ki, növbədənkənar seçkilər keçirilməyəcək. Türkiyə lideri prezident və parlament seçkilərinin qanunla müəyyən olunmuş vaxtda keçiriləcəyini vurğulayıb: ”Türkiyə hüquq dövlətidir. Hansı tarix müəyyən edilibsə, seçki həmin tarixdə keçiriləcək”. Qeyd edək ki, lirənin dollar qarşısında həddindən artıq dəyər itirməsi hökuməti ciddi tənqid hədəfinə çevirmişdi. Müxalifət lirənin ucuzlaşmasını iqtisadi böhran kimi dəyərləndirərək hökumətin istefasını istəyir, ən yaxın zamanda növbədənkənar seçkilərin keçirilməsini tələb edirdi. Məlumat üçün onu da qeyd edək ki, Ərdoğan dolların kəskin bahalaşması ilə bağlı hökumətin ötən gün keçirilən iclasında mühüm qərarlar açıqlayıb. Prezident bəyan edib ki, dolların bahalaşmasının qarşısını almaq üçün müvəqqəti xarakter daşıyan bir sıra qərarlar yaxın günlərdə tətbiq ediləcək. Türkiyə lideri deyib ki, bəzi qüvvələr Türkiyədə böhran yaratmağa və özlərinə yaxın qüvvələri iqtidara daşımağa çalışırlar.

> “Türkiyədə hakimiyyət boşluğu yoxdur, tam əksinə, çox güclü hakimiyyət, idarəetmə mövcuddur”

**Türkiyədə müxalifətin növbədənkənar seçki tələbləri ilə bağlı ”Şərq”ə danışan politoloq Natiq Miri deyib ki, qardaş ölkədə iddia edildiyi kimi hakimiyyət boşluğu yoxdur. Analitikin fikrincə, əslində Türkiyədə ciddi iqtisadi böhran da yaşanmır: ”Lirənin ucuzlaşması Türkiyə üçün düşünülmüş, süni şəkildə yaradılmış qlobal layihənin tərkib hissəsi idi. Türkiyədə qlobal maliyyə mərkəzlərinin idarə etdiyi xüsusi şirkətlər, biznes qurumları var.** Onlar zaman-zaman öz kapitallarını məqsədyönlü şəkildə geri çəkir, ölkədə qəsdən dollar qıtlığı yaradırlar. Bu da lirənin qiymətdən düşməsinə səbəb olur. İndiyə qədər bankların yüksək faizləri fonunda xarici şirkətlər və kənardan idarə olunan ”yerli” biznes qurumları milyardlarla dollar haqsız qazanc əldə ediblər. Türkiyə hökuməti bu yaramaz mexanizmi aradan qaldırmağa çalışır və bunun da qarşısında duran məhz prezident Ərdoğandır. Hökumət bu addımları ilə milyardlarla dollar vəsaitin əldən çıxmasına mane olmaqla yanaşı, həm də qlobal maliyyə şəbəkələrinin ölkə üzərindəki təsir imkanlarını sıfıra endirib. Ərdoğanın biznes şəbəkələrinə qarşı haqlı mübarizəsindən narahat olan güclər lirəni kəskin ucuzlaşdırmaqla ölkədə etiraz yaratmağa çalışır. Ən əsası isə müxalifəti təhrik edərək məsələni siyasi müstəviyə daşıyırlar. Bununla AKP hökumətinə təzyiq göstərmək niyyəti güdürlər. Müxalifətin israrla növbədənkənar seçki çağırışı bununla bağlıdır. Təlimatı canla-başla yerinə yetirən müxalif kəsim, guya, hökumətin iqtisadi böhrana səbəb olduğunu və qarşısını almaqda aciz qaldığını təbliğ edərək Ərdoğanın nüfuzunu aşağı salmağı hədəfləyirlər. Ancaq bunların hamısı mənasız cəhdlərdir. Türkiyədə hakimiyyət boşluğu yoxdur, tam əksinə, çox güclü hakimiyyət, idarəetmə mövcuddur”.

# General Zakir Həsənov Gürcüstanlı həmkarı ilə görüşüb

## Azərbaycan və Gürcüstan Müdafiə nazirlikləri arasında əməkdaşlıq planı imzalanıb



**Dekabrın 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstanın Müdafiə naziri cənab Cuanşer Burçuladzenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyindən ”Şərq”ə verilən məlumata görə, görüşdən əvvəl Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Gürcüstanın Müdafiə naziri fəxri qarovulun önündən keçdikdən sonra hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Görüşdə qonaqları salamlayan general-polkovnik Zakir Həsənov birgə əməkdaşlığımızın yüksək səviyyədə olduğunu qeyd edərək, bunun ölkələrimizin inkişafı ilə yanaşı bütün regionda təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynadığını xüsusi vurğulayıb. Birgə təlimlərin əhəmiyyətini qeyd edən nazir Gürcüstanda keçirilən ”Eternity-2021” kompüter dəstəkli üçtərəfli birgə komanda-qərargah təliminin ölkələrimiz arasında dostluğun və sarsılmaz əməkdaşlığın bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Müdafiə naziri həmkarına Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş ərazilərdə görülən işlər barədə məlumat verib.

Azərbaycana səfər etməsindən məmnunluğunu ifadə edən C.Burçuladze bunun ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsinin bariz nümunəsi olduğunu qeyd edərək əməkdaşlığımızın genişləndirilməsi baxımından bu cür görüşlərin zəruriliyini xüsusi vurğulayıb. Gürcüstanın Müdafiə naziri Vətən müharibəsində qazanılan Qələbə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib. Regionda sülhün bərqərar olmasının mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Görüşdə dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığı xüsusi vurğulanıb. Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcədə üçtərəfli birgə hərbi əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə tərəflər hərbi əməkdaşlığın inkişaf perspektivləri, birgə hərbi təlimlərin keçirilməsi, işçi görüşlərin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparıblar.

Görüşün sonunda ”Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Gürcüstan Müdafiə Nazirliyi arasında 2022-ci il üçün ikitərəfli əməkdaşlıq planı” imzalanıb.

**Sənan**





İsmayıl Qocayev

# Bitmiş savaş...

## Qarabağın qara bağını Azərbaycan özü açıb

**Rusiya Prezidenti Vladimir Putin və Fransa rəhbəri Emmanuel Makron arasında telefon danışığı olub. Kremlin məlumatına görə, telefon danışığı zamanı Rusiya və Fransa liderləri Avropa qitəsində sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi məsələlərinin müzakirəsini davam etdiriblər.**

Fikir mübadiləsi zamanı Qarabağda vəziyyətin sabitləşməsi, regionda dinc həyatın bərpa olunması, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası istiqamətində göstərilən səylərdən məmnunluq ifadə olunub. Bildirilib ki, Rusiya və Fransa bu məsələlər üzrə fəaliyyət göstərir və gələcəkdə də sinxron fəaliyyət göstərmək niyyətindədir. Xatırladaq ki, bundan əvvəl Rusiya və Fransa prezidentləri arasında telefon danışığı noyabrın 11-də olub. Makronun təşəbbüsü ilə baş tutan söhbət zamanı Qarabağ məsələsi müzakirə edilib. Müdafiə Nazirliyinin genişləndirilmiş kollegiya iclasında çıxış edən Vladimir Putin deyib ki, məhz Rusiya sülhməramlılarının mövcudluğu sayəsində Qarabağda humanitar vəziyyət yaxşılaşıb: ”Bir ildən artıqdır ki, bizim sülhməramlılarımız Qarabağda sabitliyi dəstəkləməyə yardım edirlər. Bir çox hallarda onların səyləri sayəsində humanitar vəziyyət yaxşılaşıb, bir sıra rayonlarda minatəmizləmə işləri həyata keçirilib, sosial infrastruktur obyektləri bərpa olunur, tarixi və mədəni abidələr saxlanılıb”. Rusiya lideri sülhməramlı tapşırıqları yerinə yetirən şəxsi heyətə peşəkarlığına, dözümlülüyünə və möhkəmliyinə görə təşəkkür edib.

**Moskva Fransanı Cənubi Qafqaz bölgəsinə buraxmasa da, Parisi məlumatlandırmağı unutmur**

**Rusiya və Fransa arasında intensiv təmasları ”Şərq”ə dəyərləndirən Türkiyənin ”Sütçü İmam” Universitetinin professoru, siyasi şərhçi Toğrul İsmayıl deyib ki, Rusiya və Fransa ATƏT-in Minsk qrupunun həmsədrləri olduqları üçün Qarabağ məsələsi ilə bağlı təmas qurmaları təbiidir.** Professorun sözlərinə görə, Moskva Qərb ölkəsi olan Fransanın Cənubi Qafqaz bölgəsinə nüfuz etməsinə imkan verməsə də, rəsmi Parisi məlumatlandırmalıdır: ”Rusiya heç vaxt istəməz ki, Fransanın Cənubi Qafqaz regionunda təsir imkanları formalaşsın. Bugünədək imzalanmış üçtərəfli bəyanatların hamısında dolayı yolla göstərilir ki, bölgədəki əsas güc məhz Rusiyadır. Əlbəttə, Moskvanın da əl-qolunu bağlayan bəzi məqamlar var. Bu məqamların ən birincisi, Türkiyə ilə Azərbaycanın birgə hərəkət etməsidir. Moskva çox arzulasa da, qardaş Türkiyənin Azərbaycanın yanında olmasına mane ola bilmədi və reallığı qəbul etmək məcburiyyətində qaldı. Hər halda ABŞ və Fransanın bölgəyə girməyindənsə, Türkiyənin regionda olması Kreml üçün daha məqbuldur. Nə qədər böhranlı vəziyyət olsa da, Türkiyə və Rusiya öz aralarındakı problemi çözmək iqtidarında olan dövlətlərdir. Fransa ilə Rusiya arasındakı görüşlər Minsk qrupunun varlığını göstərməklə yanaşı, müəyyən mənada Türkiyəyə də təzyiq mahiyyəti daşıyır. Amma yenə deyirəm, Moskva Avropa dövlətlərinin Cənubi Qafqaza girməsində qətiyyən maraqlı deyil”.



ABŞ və Fransanın bölgəyə girməyindənsə, Türkiyənin regionda olması Kreml üçün daha məqbuldur

**Politoloq Turab Rzayev də ”Şərq”ə bildirib ki, sülh və əməkdaşlıqla bağlı açıqlamaların istənilən dövlət başçılarının görüşlərində səslənməsi normal haldır. Analitikə görə, Rusiya və Fransa dərin əməkdaşlıq köklərinə sahib ölkələrdir:** ”Xatırladım ki, Fransa Prezidenti Makron Azərbaycan-Ermənistan rəhbərləri ilə görüşdən əvvəl Rusiya prezidenti ilə məsləhətləşmişdi. Avropa ölkələri, əsasən də Almaniya və Fransanın Rusiya ilə xüsusi əlaqələri var. Avroatlantik blok daxilindəki parçalanmadan və Fransa ilə münasibətlər kəskinləşəndən sonra bu əlaqələr daha da gücləndi. Makron məhz bu səbəbdən Avropa ordusunun yaranması, sərhədlərin qorunması ilə bağlı açıqlamalar verdi. Bunların hamısı Rusiyanın maraqları ilə uzlaşır. Amma iki ölkənin Qarabağla bağlı müzakirələrinin hansısa nəticə verəcəyini düşünmürəm. Düşünürəm ki, Putinin açıqlaması daha çox bölgədə nəzarətin onların əlində olmasını göstərmək üçün idi. Ona görə də burada rus sülhməramlılarının önəmi xüsusi vurğulanır. Qeyd edim ki, Müdafiə naziri Zakir Həsənov açıqlamasında dedi ki, ”Azərbaycan Ordusu öz sərhədlərini qorumağa qadirdir və Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hazırdır”. Azərbaycan tərəfi açıq şəkildə mesaj verir ki, Qarabağda sülhü təmin edən, ərazi bütövlüyümüzü qoruyan sülhməramlılar yox, Azərbaycan Silahlı Qüvvələridir. Azərbaycan Ordusu 44 günlük müharibədə sübut etdi ki, ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün yeganə qarantıdır. O baxımdan Fransa və Rusiya rəhbərliyinin bəyanatları reallıqda bizim üçün əhəmiyyət kəsb etmir”.

**T.Rzayevin qənaətincə, Ermənistan Baş naziri Nikol Paşinyanın son açıqlamalarını isə müəyyən qədər sülhə yönəlik addımlar kimi dəyərləndirmək olar:** ”Ancaq bu tipli bəyanatlar da bölgənin gələcəyini təyin edən addımlar sayılmaya bilər. Burada daha çox Azərbaycan-Ermənistan arasında qarşılıqlı anlaşmalar, kompramislər, iqtisadi əməkdaşlığın formalaşması önəmlidir. Artıq Türkiyə ilə Ermənistan arasında müzakirələr başlayıb. Belə proses Azərbaycanla da başlaya bilər”.



# Nəsir İmanquliyev anıldı

## Natiqlər görkəmli ziyalının örnək həyat və fəaliyyətindən danışıblar

**Azərbaycanın Əməkdar jurnalisti və Əməkdar mədəniyyət işçisi, görkəmli ziyalı Nəsir İmanquliyevin anadan olmasının 110 illiyinə həsr olunmuş onlayn konfrans keçirilib.**

Onlayn konfrans Milli Məclisin Mədəniyyət komitəsinin təşkilatçılığı, ADPU-nun Quba filialının, ”Regional Hüquqi və İqtisadi Maarifləndirmə” İB-nin dəstəyi ilə keçirilib. Tədbiri giriş sözü ilə açan MM-in Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı deyib ki, Nəsir İmanquliyev hələ sağlığında ustad kimi qəbul olunurdu. Pedaqoq, jurnalist kimi şöhrət qazanan N.İmanquliyevin şöhrəti respublika hüdudlarını aşaraq qardaş ölkələrdə də tanınırdı.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva ilk yazıları dövri mətbuatda hələ tələbəykən çap olunmağa başlayan Nəsir İmanquliyevin şərəfli yaradıcılıq yolu keçdiyini, xalqın dilinin keşiyində durduğunu, gənc istedadlara diqqət-qayğı ilə yanaşdığını xüsusi vurğulayıb: ”Nəsir İmanquliyev o illərdə ”Kommunist”, ”Yeni yol”, ”Gənc işçi”, ”Vətənin səsi” qəzetlərində ədəbi işçi, şöbə müdirinin müavini, şöbə müdiri, məsul katib, redaktor vəzifəsində çalışıb. II Dünya müharibəsi zamanı, 1942-ci ildə Nəsir İmanquliyev Krım cəbhəsinə göndərilib, orada ”Vuruşan Krım” qəzetinin məsul katibi kimi fəaliyyət göstərib, eyni zamanda hərbi hissədə tərcüməçi kimi çalışıb.

Bir il sonra, 1943-cü ildə Nəsir İmanquliyev yenidən Bakıya təyinat alıb, o dövrün ən tirajlı qəzetində məsul katib təyin edilib, burada onun vətənpərvərlik mövzusuna həsr edilmiş bir çox məqalələri işıq üzü görüb. 1946-cı ildə Moskvada Mərkəzi Qəzet kursunu bitirən Nəsir İmanquliyev, 1948-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsində təhsil alıb. O, Azərbaycan Dövlət Universitetində pedaqoji fəaliyyət göstərib, Jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında dərs deyib.



Nəsir İmanquliyevin həyatında və bütövlükdə ölkə mediasının həyatında onun 1958-ci ildə yaratdığı ”Bakı” qəzetinin özəl yeri olub. Çünki ”Bakı” - ”Baku” axşam qəzeti keçmiş SSRİ-də, demək olar, ilk təcrübə idi. 10 yanvar 1958-ci il tarixində qəzetin ilk nömrəsi işıq üzü görüb və mövcud olduğu illər içində bir ocağa çevrilib. Qəzet və onun qurucusu örnək alınıb.

Nəsir İmanquliyevin həyat və fəaliyyətindən söz açan mütəxəssislər onun ən azı üç istiqamətini özəlliklə fərqləndirir, görkəmli şəxsiyyəti peşəkar jurnalist, ictimai-siyasi xadim və alim, ziyalı olaraq xarakterizə edirlər. Bütün bu istiqamətlər onun yaratmış və uzun illər başçılıq etdiyi ”Bakı”- ”Baku” axşam qəzetinin bir sənət ocağına, yaradıcılıq lobaratoriyasına çevrilməsi ilə də öz təsdiqini tapır.

Nəsir İmanquliyev Balahəsənli bəylərindən olan Yusif bəy Sultanovun qızı Gövhər Sultanzadə ilə ailə həyatı qurub və bu evlilikdən onların yeganə qız övladı, görkəmli şərqşünas-alim Aida İmanquliyeva dünyaya gəlib. Aida xanım Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın, tanınmış akademik, Lomonosov adına MDU-nun Bakı filialının rektoru Nərgiz Paşayevanın anasıdır.

2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ”Nəsir İmanquliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında” Sərəncam imzalayıb. Həmin ildə Ömər Eldarovun müəllifliyi ilə, görkəmli ziyalının yaşadığı binaya xatirə lövhəsi vurulub. 2007-ci ildə isə doğma BDU-da xatirə lövhəsi açılıb. 2011-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən Nəsir İmanquliyevin 100 illiyinə həsr olunmuş silsilə yubiley tədbirləri keçirilib.

Nəsir müəllim gözəl ailə başçısı, xeyirxah insan, gənclərin yolunu açan, onlara dəstək duran şəxsiyyət kimi qəlblərdə yaşayır.

Millət vəkili Arzu Nağıyev, BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu, Nəsir İmanquliyev haqqında kitab yazmış tədqiqatçı-jurnalist Şərəf Cəlilli, özbəkistanlı şair-publisist, tərcüməçi, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşı Şəhla Qasımova, tanınmış Qaqauz ziyalısı Güllü Qərənfil, AYB sədrinin müavini, ”525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, ”Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı, BAMF-nin qurucu-başqanı Umud Rəhimoğlu, ”Baku.az” portalının şöbə müdiri, Nəsir İmanquliyev haqqında film çəkmiş Fəxriyyə Lilpar, RHİM İB sədri Arzu Bağırova konfransda çıxış edib.

*Çıxışlarda görkəmli ziyalının örnək həyat və fəaliyyəti haqqında danışılıb, xatirələr bölüşülüb. Nəsir İmanquliyevin ”Jurnalistika məsələləri” və digər əsərlərinin bu gün də öz aktuallığını saxladığı vurğulanıb. Çıxışçılar onun ”Sanballı vəzifə tutsam da, ürəyim qəzet redaktorluğunda idi” sözlərini minnətdarlıqla xatırlayıblar.*

# Ən uyğun çıxış yolu tapılmalıdır

## MİS-lər ləğv olunursa, əvəzinə normal bir qurum yaradılmalıdır

**Mənzil təsərrüfatı islahatı ilə bağlı məsələlərdə nəzərdə tutulan işlərdən biri də Mənzil İstismar Sahələrinin ləğvidir. Məlumata görə, icra hakimiyyətlərinə tabe olan Mənzil İstismar Sahələri 2022-2026-cı illər üzrə Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasına əsasən ləğv olunacaq.**



İş yalnız vətəndaşlardan pul toplamaqdan ibarət olmamalıdır

Sovetlər dönəmindən binaların idarəetməsini MİS-lər həyata keçirib. Növbəti ildən isə bu qurumların mənzil idarəçiliyindən uzaqlaşdırılması nəzərdə tutulur. Bu barədə Trend-ə açıqlama verən əmlak eksperti Elnur Fərzəliyev deyib ki, zaman keçdikcə müəyyən səlahiyyətlər MİS-lərin əlindən alındı. Onların göstərdikləri xidmətlərin həm çeşidi, həm də kadr potensialı kəskin azalıb. Bu təşkilatların funksiyası mənzil fondunun qorunmasını və ondan lazımınca istifadə olunmasını, vətəndaşlara yüksək səviyyədə xidmət göstərilməsini təmin etmək, habelə yaşayış sahəsindən istifadə, yaşayış evini və evyanı ərazini saxlama qaydalarına vətəndaşlar tərəfindən əməl olunmasına nəzarət etmək idi. Hazırda MİS-lərin gördüyü işlər əsasən ərazinin təmizliyi, binaların təmiri və vətəndaşların qeydiyyatı prosesidir. Bu gün Azərbaycanda binaların idarəetməsinə MİS-lərlə yanaşı, bələdiyyələr və yeni binalarda komendantlar baxır. Bu qurumlar oxşar işləri görürlər. MİS-lər ləğv ediləcəksə, onların yerinə ya alternativ qurum yaradılacaq, ya da səlahiyyəti başqa qurumlara veriləcək.

Qeyd edilir ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı yeni strategiyada, ümumiyyətlə, mənzil təsərrüfatı ilə bağlı islahatların nəzərdə tutulduğunu deyib. MİS-lərin səlahiyyətində olan məsələlələr də bura daxildir. Bunlar addım-addım icra olunacaq. Hazırda strategiya hökumətin müzakirəsindədir.

MİS-lərin əvəzinə hansı qurum olacaq, necə fəaliyyət göstərəcək, hələ ki, bu barədə oratda konkret bir təklif yoxdur.

**Sosioloq Elçin Bayramlı ”Şərq”ə açıqlamasında bildirib ki, MİS-lərin ləğvi ilə bağlı 10 ildən çoxdur müzakirələr aparılır, hələ də optimal çıxış yolu tapılmayıb:**

- Məlum məsələdir ki, MİS-lər öz səlahiyyətlərini itiriblər və formal mövcuddurlar. Amma onların əvəzinə nə olacaq? Dövlət əlavə xərclərdən azad olmaq istəyir, ona görə də mənzil təsərrüfatı ilə bağlı xərclərin sakinlər tərəfindən ödənməsinə çalışılır. Yeni tikililərdə bu məsələ asandır. Yaşayış binası inşa edən MTK-lar, MMC-lər binalara komendant təyin edir, nəzarəti onlar həyata keçirir, bina ilə bağlı hər hansı xərc tələb olunanda da sakinlərdən toplanır. Müasir binada mənzil alan şəxs bəlli müqavilə imzalayır, ortaya çıxa biləcək xərcləri də nəzərə alır. Yeni tikililərdə kommunal xərclər əvvəldən bəllidir. Amma köhnə, dövlətin balansında olan yaşayış binalarında hansısa təmir işlərinə görə sakinlərdən pul yığılması doğru deyil. Sakin öz mənzilinə cavabdehdir. Mənzilin xaricində, damda, həyətdə baş verənin sakinə dəxli olmamalıdır. Həyətdə su kranı xarab olubsa, ya da lift işləmirsə, bloka elektrik lampası asmaq lazımdırsa, bunun üçün niyə sakinlərdən pul toplanmalıdır? Bunu dövlət qurumu etməlidir. Mənzillərin idarə olunması deyəndə, pul toplanması nəzərdə tutulacaqsa, bu, sosial narazılıq yaradacaq. Vətəndaş illər əvvəl mənzil alıbsa, yaxud dövlət ona mənzil veribsə, buna görə indi o, pul ödəməlidir? Bu, absurd görünür. Sakinlər kommunal xidmət haqqını onsuz da ödəyir. Elektrik enerjisi, təbii qaz, suya görə ödənis edirlər. Kommunal xidmət haqqı da guya ki, zibillərin daşınması və sair hansısa fəaliyyətə görə toplanır. Vətəndaş kommunal xidmət haqqını ödəyirsə, ondan əlavə pul toplanmamalıdır. Sakinlərin üzərinə əlavə yük qoymaq olmaz.

**E.Bayramlı bir çox ölkələrdə bu məsələlərin çoxdan həllini tapdığını dedi:**

- Məsələn, Türkiyədə bələdiyyələrin geniş səlahiyyətləri var. Büdcələri də var və lazım olan məqamda vətəndaşa kömək edirlər. Orda yaşayış binalarına nəzarət etmək üçün konkret şəxslər təyin edilir. Amma bizdə illərdir bələdiyyələrin büdcəsi müəyyənləşmir, genişlənmir. Çünki bütün gəlirli sahələr icra hakimiyyətlərinin əlindədir. Halbuki, bələdiyyələrin büdcəsi gəlirli sahələrdən - ərazidə olan xidmət sahələri, parklar, restoran, kafelər və sair. təşkil olunmalıdır və fəaliyyət istiqamətləri dəqiq bilinməlidir. Bələdiyyələrin işi nədən ibarətdir, bunu açıqlayan yoxdur. Amma pul toplayırlar. Toplanan pullar hara gedir? Bilinmir. Su xətti, kanalizasiya xarab olanda, bələdiyyə deyir, mənlik deyil, pul yığın, təmir etdirin. Bəs sakinlərin bələdiyyələrə ödədiyi vəsaitə hansı işlər görülür? Bu məsələlər ciddi araşdırma tələb edir. MİS-lər ləğv olunursa, əvəzinə normal bir qurum yaradılmalıdır və qurumun fəaliyyəti sakinlərdən pul toplamaqdan ibarət olmamalıdır.

Məlahət Rzayeva

# Türkiyənin maliyyə bazarında zamanla sabitlik yaranacaq

## Lirə və manatın qarşılıqlı mübadiləsi effektli üsuldur



**Türkiyə Azərbaycan manatını mübadilə valyutaları siyahısına əlavə edib. Manatın daxil edilməsindən sonra Türkiyə Mərkəzi Bankının xarici valyuta cədvəlindəki valyutaların sayı 22-yə çatıb. Manatla yanaşı, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) dirhəmi də xarici valyutalar siyahısına əlavə olunub.**

Xatırladaq ki, Türkiyə hökumətinin iqtisadiyyatın idarə edilməsi ilə bağlı qəbul etdiyi 20 dekabr tarixli qərar ölkədə xüsusi canlanma yaradıb. Son günlər ABŞ dollarının məzənnəsinin Türkiyənin milli valyutası olan türk lirəsinə nisbətən davamlı yüksəlişi əhalidə, o cümlədən iqtisadi sahədə və biznes mühitində böyük təlaş yaratmışdı. Hökumətin qərarı əsasında alınmış tədbirlər nəticəsində dekabrın 20-də gecə saatlarından başlayaraq ABŞ dolları türk lirəsinə nisbətən sürətlə geriləməyə başlayıb. Əhali "Türk lirəsini mühafizə paketi" adı ilə başlanan layihəni böyük ümidlə qarşılayıb.

**İqtisadçı Pərviz Heydərov "Şərq"ə bildirib ki, Azərbaycan manatının mübadilə valyutaları siyahısına əlavə edilməsi o deməkdir ki, lirə-manat mübadiləsində üçüncü valyutanın dəyərinin nəzərə alınmasına ehtiyac qalmır. Ekspert deyib ki, söhbət birbaşa lirə və manatın qarşılıqlı mübadiləsindən gedir:** "Bu, daha effektiv üsuldur və lirənin sabit qalmasına zəmin yaradan amildir. Eyni zamanda Türkiyə ilə qarşılıqlı ticarət və iqtisadi əməkdaşlıqda manatın öz dəyərini birbaşa diktə etməyə imkan verir. Əlbəttə, bu addımı daha əvvəldən atmaq mümkün idi. Görünür, yaranmış mövcud vəziyyət, lirənin dollar qarşısında ucuzlaşması bu addımı atmağı zəruri hala gətirdi. Azərbaycanla qarşılıqlı ticarət əlaqələrində manatın özünün dəyərinin nəzərə alınması daha məqsədəuyğundur".

**P.Heydərova görə, Türkiyə hökuməti tərəfindən atılan addımlar, təbiq ediləcək yeni layihələr lirənin mövqeyinin bərpasına şərait yaradacaq:** "Zamanla qardaş ölkənin maliyyə bazarında sabitlik yaranacaq. Şübhəsiz, tədbirlər davamlı olmalı və gələcəkdə spekulyativ amillərin meydana çıxması üçün zəmin formalaşmamalıdır. Məsələn, hökumət qərara alıb ki, vətəndaşların banklardakı lirəyə görə üzləşdikləri itkilər dövlət tərəfindən qarşılanacaq. Bu, əlavə pul emissiyası və nağd pulun dövriyyəyə buraxılması deməkdir. Nağd pul kütləsi vəziyyət sabitləşdikdən sonra əlavə problemlər yarada, lirənin dəyər itirməsinə gətirib çıxara bilər. Ona görə də atılan addımlarda ehtiyatlı olmaq lazımdır".

**İsmayıl Qocayev**

# Ən təhlükəli senariyə bir addım qalıb

## "Rusiya "Donbassda rusları qorumaq" adı altında ordusunu bu bölgəyə yeridə bilər"



**"Rusiya Prezidenti Vladimir Putin son çıxışında "geriyə yol yoxdur" deyərək Qərbə ünvanladığı "qırmızı cizgidən" vaz keçməyəcəyini bildirib. Qərb isə Kremlin heç bir "cizgisini" tanımadığını bəyan edib".**

*Bunu "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Politoloq bildirib ki, Qərb Rusiyanı sakitləşdirmək üçün danışıqlara başlaya bilər. Ancaq Putin deyib ki, Rusiyanı danışıqlar adı altında aldatmağa çalışırlar:* "Putin danışıqlardan nəticə gözləmədiyinə bəri başdan işarə edib. Kreml sahibi bir tərəfdən "danışıqlar" deyərkən, o biri tərəfdən "danışıqlar nəticə verməyəcək" fikrini səsləndirir. Putinin digər ziddiyyətli açıqlaması da var. O, bir tərəfdən istəyir ki, Vaşinqton Ukraynanın və Gürcüstanın NATO üzvü olmayacağı barədə Kremlə yazılı təminat versin. Digər tərəfdən isə deyir ki, "Vaşinqtonun imzaladığı sənəd qara qəpiyə dəyməz, çünki istənilən vaxt sazişdən imtina edə bilər". Bunu deyən o ölkənin lideridir ki, həmin dövlət Ukrayna ərazisinə iddia etmədiyinə dair 1994-cü ildə Budapeştdə sazişə imza atmış, 2014-cü ildə isə Krımı ilhaq etmişdi".

**Siyasi şərhçinin fikrincə, Kreml ultimatumuna Qərbdən qəti rədd cavabı aldıqdan sonra Krım və Belarus ərazisində takitki nüvə silahları yerləşdirəcək:** "Belarus Prezidenti Aleksandr Lukaşenko da son müsahibələrinin birində nüvə raketlərinin ölkəsinə geri qaytarılması üçün Moskvaya müraciət edəcəyini bildirmişdi. Yəni bu proses artıq başlayıb. Kremlin məntiqi sadədir: "Siz Rumıniya və Polşada nüvə başlıqlı raketlər yerləşdirirsinizsə, mən də eyni tip raketləri istədiyim ərazidə yerləşdirəcəm". Üçüncü və ən təhlükəli senari Rusiyanın Ukraynaya hərbi müdaxiləyə başlamasıdır. Kreml ultimatumlarla "hədəfləri" elə böyüdüb ki, bu senari artıq qeyri-real görünmür. Rusiya "Donbassda rusları qorumaq" adı altında ordusunu bu bölgəyə yeridəcək və ardınca da, Krımda olduğu kimi "referendum" keçirib Donbassı Rusiyaya birləşdirəcək. Ancaq bu da təhlükəli proseslərin sonu olmayacaq, qarşıdurma yeni fazaya keçəcək".

**İsmayıl**

# "Azərbaycanın savaş təcrübəsi Gürcüstana lazımdır"

## Şair Ramaldanov: "Təcrübədən faydalanmaq üçün birgə tədbirlər təşkil edilir"



**Dekabrın 22-də Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Gürcüstanın Müdafiə naziri Cuanşer Burçuladzenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə general-polkovnik Zakir Həsənov birgə əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, bunun ölkələrimizin inkişafı ilə yanaşı bütün regionda təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynadığını xüsusi vurğulayıb. Birgə təlimlərin əhəmiyyətini qeyd edən nazir Gürcüstanda keçirilən "Eternity-2021" kompüter dəstəkli üçtərəfli birgə komanda-qərargah təliminin ölkələrimiz arasında dostluğun və sarsılmaz əməkdaşlığın bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Azərbaycana səfər etməsindən məmnunluğunu ifadə edən C.Burçuladze bunun ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsinin bariz nümunəsi olduğunu qeyd edərək əməkdaşlığımızın genişləndirilməsi baxımından bu cür görüşlərin zəruriliyini xüsusi vurğulayıb.

Gürcüstanın Müdafiə naziri Vətən müharibəsində qazanılan qələbə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib. Regionda sülhün bərqərar olmasının mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Görüşdə dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığı xüsusi vurğulanıb. Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcə də üçtərəfli birgə hərbi əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşün sonunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Gürcüstan Müdafiə Nazirliyi arasında 2022-ci il üçün ikitərəfli əməkdaşlıq planı" imzalanıb.

**Gürcüstanla Azərbaycanın əməkdaşlığını "Şərq"ə şərh edən ehtiyatda olan polkovnik Şair Ramaldanov açıqlamasında bildirib ki, Gürcüstan Azərbaycanla dost ölkədir:** "İki ölkəni bir-birinə bağlayan enerji kəmərləri var. Deməli olar, Müdafiə nazirlərinin görüşü mütəmadi keçirilir. İki dost ölkənin nazirləri bir araya gələndə, ilk növbədə təhlükəsizlik, o cümlədən hərbi əməkdaşlıq məsələləri istiqamətində yeni planlar qururlar. Rəsmi Tbilisi və Bakının silahlı qüvvələrinin inkişafı ilə əlaqəli müəyyən qərarlar qəbul edilir. Artıq Gürcüstan və Azərbaycan birgə təlimləri hər dəfə reallaşır. Bu təlimlərin əsas məqsədi kəmərlərin təhlükəsizliyini təmin etmək, eyni zamanda iki ölkənin müştərək hədəflərə nail olaraq birgə fəaliyyət göstərməsindən ibarətdir".

**Ş.Ramaldanovun sözlərinə görə, Azərbaycan regionda sülhü qoruyan ölkə funksiyasını daşıyır:** "Cənubi Qafqazda ən güclü olan Azərbaycan Ordusunun əsas məqsədi sülhü qorumağa yönəlib. Əlbəttə, Azərbaycanın müharibədə zəfər qazanmış tərəf kimi, digər ölkələr daxil olmaqla, Gürcüstana da savaş təcrübəsi çox maraqlıdır. Təcrübədən faydalanmaq üçün birgə tədbirlər təşkil edilir. Ermənistan həm Azərbaycan, həm də Gürcüstanla qonşudur. Regionda Ermənistanın revanşist çıxışları, sülhü təhlükə altına ala biləcək amilləri nəzərdən keçiriləcək. Baş tutan görüş hər iki ölkə üçün faydalı, səmərəli olacaq".

**Polkovnik hesab edir ki, Azərbaycan praktik bilgilərini Gürcüstanla bölüşə bilər. Lakin rəsmi Tbilisinin bilgilərdən nə qədər istifadə edəcəyi müəyyən faktorlardan asılıdır:** "Əsas faktor da Rusiyadır. Azərbaycan torpaqlarını geri qaytarmasına, Gürcüstanın torpaqlarını azad etməsi ilə eyni prizmadan baxmaq lazım olduğunu düşünmürəm. Öz torpaqlarına sahib çıxmaq hər ölkənin şəxsi işidir. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev diplomatiya sahəsində böyük işlər görüb, nailiyyətlər qazanıb. O, birinci qələbəni məhz diplomatiyada qazandı. Bu da qısa müddət ərzində əzəli torpaqlarımızı işğaldan azad edib ərazi bütövlüyünü təmin etməyə şərait yaratdı. Aprel hadisələrindən sonra Prezident demişdi ki, Azərbaycanla Ermənistanı təkbətək qoysalar, Azərbaycan Ordusu işğalçıları darmadağın etməyə qadirdir. Buna da nail olundu, Ordu öz sözünü dedi".

**Aygün Tahir**

# NATO-nun sərhəddə aktivliyi nəbz yoxlamasıdır

## Əvvəl-axır Rusiya ilə toqquşma baş verəcək, ziyan görən Ukrayna olacaq



**NATO-nun Rusiya sərhədlərinə doğru bundan sonrakı hərəkəti Moskva tərəfindən "qırmızı xətlər"in keçilməsi kimi dəyərləndiriləcək. Bu bəyanatı Rusiyanın Xarici işlər naziri Sergey Lavrov səsləndirib. Nazir bildirib ki, NATO-nun genişləndirilməsinə dair Moskvanın mövqeyi bəllidir:**

"Əgər alyans Rusiya Federasiyasının sərhədlərinə doğru irəliləməyə davam edərsə, bu, "qırmızı xətlər"in keçilməsi kimi dəyərləndiriləcək". Qeyd edək ki, dekabrın 17-də Rusiya Xarici İşlər Nazirliyi Rusiya ilə ABŞ arasında təhlükəsizlik zəmanətinə dair müqavilə layihələrini yayımlayıb. Sənədlər artıq Vaşinqtona və onun müttəfiqlərinə təqdim olunub. Layihənin bəndlərindən birində təklif olunur ki, NATO alyansın Ukrayna ərazisinə qədər genişləndirilməməsinə təminat versin.

Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkovun "RİA Novosti"yə verdiyi məlumata görə, hərbi alyans və Amerika Rusiyanın təhlükəsizlik zəmanəti tələbinə cavab verməsələr, bu, qarşıdurmanın yeni mərhələsinə gətirib çıxara bilər. Bu arada Rusiya Müdafiə naziri Sergey Şoyqu Rusiya yaxınlığında NATO təlimlərinin miqyasının artdığını bildirib: "Amerika Rusiya yaxınlığında qoşun hazırlığı tədbirlərinin miqyasını və intensivliyini məqsədyönlü şəkildə artırır. Tez-tez obyektlərə şərti nüvə raketlərinin buraxılışını həyata keçirən strateji aviasiyadan istifadə edirlər. Onlar tez-tez obyektlərimizə şərti nüvə raketlərinin buraxılışını həyata keçirən strateji aviasiyadan istifadə edirlər".

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə vurğulayıb ki, əvvəl-axır Rusiya ilə toqquşma baş verəcək.** Lakin analitikə görə, bu toqquşmanın tərəfi heç bir halda Qərb, ABŞ və Avropa olmayacaq: "Rusiyanın silahlı qüvvələri de-fakto Ukrayna sərhədində cəmlənib. Moskva hərbi əməliyyatların başlaması ilə bağlı nəbz yoxlaması etdi. Görünən odur ki, Qərb sadəcə diplomatik yollarla, iqtisadi sanksiyalarla cavab verəcək. Əlavə olaraq, səfirlikləri qapada, digər münasibətləri kəsə bilər. Bununla Rusiya heç nə itirməyəcək. Qərb öz addımları ilə Rusiyanı qızışdırmaqla məşğuldur. Belə getsə, Ukrayna da Polşanın aqibətini yaşamaq məcburiyyətində qalacaq. Burada Qərblə hansısa aktiv hərbi toqquşmalardan söhbət getmir. Rusiyanın imperial gücü qarşısında qalacaq ölkə Ukraynadır. Bəli, Ukrayna ilə hərbi əməliyyatlar başlaya bilər. Kiyevin də buna çox tab gətirməsi qeyri-mümkündür".

**İsmayıl Qocayev**

# İran Zəngəzur dəhlizinə qarşı deyil

## XİN başçısının Bakı səfərində əsas məqsəd iki ölkə arasında iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsidir



**İranın Xarici işlər naziri Hüseyn Əmirabdullahian Azərbaycanda səfərdədir. Səfər Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovun dəvəti əsasında həyata keçirilir. O, birgünlük səfər çərçivəsində rəsmi şəxslərlə görüşəcək.**

Görüşlərdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri və aktual regional məsələlər müzakirə olunacaq. İranın xarici işlər naziri rəsmi Bakı ilə əməkdaşlığın genişləndirilməsi ilə bağlı müxtəlif təşəbbüslərinin olduğunu və bunları Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə də qaldıracağını bildirib. Səfər çərçivəsində C.Bayramovla H.Əmirabdullahian birgə mətbuat konfransı keçirəcəklər.

Qeyd edək ki, ötən iki ayda Azərbaycan Respublikasının bəzi yüksək vəzifəli rəsmilərinin Tehrana səfəri olub. Bu ay isə iki ölkənin prezidentləri İlham Əliyev və İbrahim Rəisi İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) Aşqabadda keçirilən sammiti çərçivəsində görüşüblər.

**Səfərin əhəmiyyətini "Şərq"ə şərh edən siyasi şərhçi Aqşin Kərimov bildirib ki, İran Zəngəzur dəhlizinə qarşı deyil:** "İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahianın Bakı səfərinin mahiyyəti iki ölkə arasındakı münasibətlər kontekstində dəyərləndirildikdə biz burada iqtisadi-ticari əlaqələrin inkişafının prioritet olduğunu söyləyə bilərik. Azərbaycanla İran arasındakı münasibətlərin təməlində iqtisadi konstruksiyalar üstünlük təşkil edir. Buna görə də İran, Azərbaycan, Gürcüstan Fars körfəzini Qara dənizə birləşdirən tranzit marşrutunun yaradılması üzrə razılıq əldə ediblər. Bu, Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri arasında yeni əlaqələndirmə platformasıdır. Bundan başqa Türkmənistan qazının İran üzərindən Azərbaycana nəqli barədə də Bakı-Tehran-Aşqabad üçbucağında razılıq əldə edilib ki, bu da "Transxəzər" qaz kəməri layihəsinin reallaşmasını aktual hala gətirir. Azərbaycan-İran iqtisadi münasibətlərinin digər aspekti Xudafərin körpüsü üzərində tikiləcək su elektrik stansiyaları ilə bağlıdır.

İranın Zəngəzur dəhlizinə qoşulacağı barədə xoşməramlı mesajlar da Bakı-Tehran münasibətlərindəki iqtisadi bağları möhkəmləndirən faktora çevriləcək. Əslində İran Zəngəzur dəhlizinə qarşı deyildi, İranın etiraz etdiyi məqam bu dəhlizin Azərbaycan-Ermənistan sərhəd delimitasiyası fonunda reallaşacağı ilə bağlı idi. Bütün bunlar Abdullahianın Bakıya gətirdiyi portfeldəki sənədlərin məzmununa daxildir. Ancaq düşünmək üçün kifayət qədər əsaslar var ki, Azərbaycanla İran arasındakı siyasi münasibətlərdə əhəmiyyətli irəliləyiş əldə olunmayacaq. Düzdür, İranın Azərbaycanla sərhəd boyu zonalarda keçirdiyi hərbi təlimlər zamanı Bakı-Tehran münasibətlərində müşahidə edilən gərginlik indi yoxdur. Lakin İranın Azərbaycana münasibətdə mövqeyinin kökündə əsaslı dəyişiklik olmasını düşünmək də sadəlövhlük olardı. İran, sadəcə, Cənubi Qafqazda yaranan yeni reallıqları qəbul etməli oldu, buna görə də öz aqressiv ritorikasını ehtiyata atdı.

Digər aspektdə söhbət ondan gedir ki, İranla "altılıq ölkələri" (BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü+Almaniya) arasında nüvə danışıqlarının keçirilməsi gözlənilir. Hazırda Qərb İranı nüvə danışıqlarında praktiki nəticələr hasil edən əsaslı güzəştlərə məcbur etmək istəyir. Görünür ki, bu, Rusiyanın və Çinin marağındadır. Qərb bu məsələdə təlimatların çoxunu İsraildən alır, buna görə də Qərb Cənubi Qafqazda yaranan reallıqları İranın əleyhinə yönəltmək istiqamətində çalışır. Düşünürəm ki, Abdullahian Bakı səfərində, gələcəkdə hər hansı mübahisəli məsələlər olacağı təqdirdə, Azərbaycanın tutacağı mövqenin dəqiqləşdirilməsini öyrənmək istəyir. Ümumilikdə Azərbaycan-İran siyasi magistralında nahamarlıq olsa da, iki ölkə arasındakı iqtisadi əlaqələrin inkişafı reallaşacaq".

**Xanlar Əlibəy**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**

İsmayıl Qocayev




# Elektron ticarətin üstünlükləri həddindən artıq çoxdur

## Xarici ölkələrdəki dövriyyəyə cəlb olunmuş yüksək texnoloji yenilikləri dərhal öz ölkəmizdə tətbiq edə bilərik

**Müasir dövrdə elektron ticarət həyatımızın ayrılmaz hissəsinə çevrilməkdədir. Uzun məsafədən qısa zaman xərcləyərək alış-veriş etmək üçün elektron ticarət olduqca əlverişlidir. Digər tərəfdən, bu ticarət növünün sahibkarlar üçün də üstün cəhətləri var.**

Ənənəvi ticarətlə məşğul olan sahibkar məcbur olub müəyyən məbləğdə obyekt icarəyə götürməli, orada maaşlı işçilər saxlamalı və digər xərcləri qarşılamalıdır. Elektron ticarətdə isə bu xərclərin bir çoxu ortadan qalxır. Eyni zamanda elektron ticarətin inkişafı kuryer və logistika şirkətlərinin də fəaliyyət arealını genişləndirir. Həmçinin yeni cari hesabların açılması baxımından bank sektoru üçün də elektron ticarət mühüm önəm kəsb edir. Elektron ticarətin inkişafı həm də yeni iş yerlərinin yaradılması, dövlət gəlirlərinin stimullaşdırılması və yerli məhsulların xarici onlayn satış platformalarına çıxarılması vasitəsilə ölkənin tanıdılması deməkdir. Elektron ticarət informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət növüdür. Bu fəaliyyət növünə əsasən internet mühitində insanlar müəyyən sistemlərlə ərzaqdan tutmuş avtomobilə qədər müxtəlif növ məhsulları pul qarşılığında satın alırlar. Elektron ticarətin inkişafının əsasında müasir və əlçatan internet infrastrukturu, inkişaf etmiş logistika və elektron ödəmə sistemləri, optimal vergi və gömrük tənzimlənməsi, dəqiq statistika, elektron biliklər və maarifləndirmə dayanır. Dünyanın bir çox ölkəsində tətbiq edilən bu alqı-satqı əməliyyatı ilə istehlakçı evindən, iş yerindən və ya hər hansı digər bir məkandan internetə qoşularaq zaman və məkan fərqi olmadan alış-veriş edə bilər. Mütəxəssislərin fikrincə, hazırda dünyada elektron ticarətin həcminə görə ABŞ, Çin, İngiltərə, Yaponiya, Almaniya kimi ölkələr ön sıralarda gedirlər.

Son dövrlər Azərbaycanda da elektron ticarətə insanlar arasında marağın artması nəzərə çarpır. Məsələn, 2019-cu ildə Azərbaycanda elektron ticarətin həcmi 91faiz artaraq 2,2 milyard manat təşkil edib. 2021-ci ildə isə Azərbaycan Mərkəzi Bankının məlumatına görə, ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin 11 ayı ilə müqayisədə 78,7 faiz artıb. 2021-ci ilin 11 ayı ərzində kartlar vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi 9 milyard 668 milyon manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 6 milyard 132 milyon manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 3 milyard 501 milyon manatı POS-terminallar, 34 milyon manatı isə ATM-lər vasitəsilə gerçəkləşdirilib. Bununla belə Azərbaycanda son illər elektron ticarətin təşviqi istiqamətində bir sıra tədbirlər həyata keçirilməsinə baxmayaraq, hələ də ənənəvi ticarət növünə üstünlük verən insanların sayı ilə elektron ticarətə üz tutanların sayında kəskin fərq olduğu danılmazdır. Əhalinin bir qismi elektron ticarətə üstünlük verir ki, onların da əksəriyyəti alış-veriş edərkən, əsasən, yerli deyil, tanınmış xarici elektron ticarət platformalarından sifarişlər verirlər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və rəqəmsal inkişaf şöbəsinin rəhbəri Rəşad Əzizov bir müddət öncə bildirmişdi ki, Azərbaycanda elektron ticarətin (e-ticarət) inkişafı üçün bu ilin sonunadək yeni imkanlar yaradılacaq. Vurğulamışdı ki, bu imkanlar e-kommersiya və elektron logistika vasitəsilə ixrac prosedurlarını sadələşdirməyə, sərhəd gecikmələrini azaltmağa, əməliyyatların şəffaflığını və təhlükəsizliyini artırmağa, saxtakarlıqdan qaynaqlanan inzibati xərcləri və itkiləri azaltmağa, həmçinin rəqəmsal iqtisadiyyatda daha təkmil rəqabətliliyin təmin edilməsinə zəmin yaradacaq: "Azərbaycan Avropa İttifaqının "EU-4 Digital" təşəbbüsündə fəal iştirak edir. Bu təşəbbüsün məqsədi Aİ-nin Vahid Rəqəmsal Bazarını Şərq Tərəfdaşlığı ölkələrinə doğru genişləndirmək və iqtisadiyyatı inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, insanların həyatını yaxşılaşdırmaq və biznesi dəstəkləmək üçün rəqəmsal iqtisadiyyatın və cəmiyyətin potensialını artırmaqdır. Hazırda geniş miqyasda "virtual anbar" həllinin icrası üçün tövsiyələr hazırlanır".

Məlumat üçün bildirək ki, hazırda Avropa İttifaqının "EU-4 Digital" təşəbbüsü tərəfindən e-ticarət həllərini tətbiq etmək üçün üç Şərq Tərəfdaşlığı ölkəsində - Azərbaycan, Gürcüstan və Ermənistanda Aİ və Şərq Tərəfdaşlığı regionu arasında elektron kommersiyanı inkişaf etdirmək üçün pilot layihəyə start verilib. Layihə çərçivəsində qeyd olunan ölkədən Almaniyaya məhsul ixrac əməliyyatları aparılıb. Pilot layihə çərçivəsində pərakəndə satıcılar, bazarlar, çatdırılma operatorları və gömrük orqanları arasında sərhədlərarası məlumatların avtomatik və elektron şəkildə mübadiləsi üçün iştirakçı ölkələrin hər birində satıcıların öz məhsulları haqqında əsas məlumatları saxlaya biləcəyi "virtual anbarlar"ı sınaqdan keçirməyi hədəfləyir. Son dönəmlər bir sıra ölkələrlə yanaşı, Azərbaycanda da elektron ticarətin, nağdsız alış-verişin miqyasının genişlənməsinin əsas səbəblərindən biri də koronavirus pandemiyası idi. Məhz pandemiya xüsusilə elektron ticarətə, elektron ödənişlərə sanki bir "töhfə" vermiş oldu. Azərbaycanda pandemiya dövründə iri ticarət mərkəzlərinin fəaliyyətinin dayandırılması nəticəsində insanlar onlayn alış-verişə üstünlük vermək məcburiyyətində qaldılar. Bunun nəticəsində ölkəmizdə onlayn alış-veriş edənlərin sayı əhəmiyyətli dərəcədə artdı. Statistik məlumatlara əsasən, Azərbaycanda elektron ticarətin həcmi 2018-2020-ci illər ərzində 5 dəfəyə qədər yüksəlib.

***"Gizli və qeyri-şəffaf iqtisadiyyatdan yaxamızı qurtarmaq istəyiriksə, mütləq elektron ticarəti, nağdsız ödənişləri inkişaf etdirməliyik"***

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında deyib ki, elektron ticarət gizli iqtisadiyyatın "belini qırıb". Ekspertin fikrincə, gizli və qeyri-şəffaf iqtisadiyyatdan yaxamızı qurtarmaq istəyiriksə, mütləq elektron ticarəti, nağdsız ödənişləri inkişaf etdirməliyik:** "Ölkəmizdə texniki sistemlərlə bağlı problem yoxdur. Xarici ölkələrdəki dövriyyəyə cəlb olunmuş yüksək texnoloji yenilikləri dərhal öz ölkəmizdə tətbiq edə bilərik. Bank sistemimiz son dönəmlər bir çox yeniliyə inteqrasiya olunub. Bizdəki əsas problemlər insanların yanaşması ilə bağlıdır. Düzdür, pandemiya elektron ticarətə böyük təkan verdi. Əksər adamlar məcburiyyət qarşısında elektron xidmətlərdən yararlandı. Amma sonrakı mərhələ üçün bunu intensiv hala gətirmək, adiləşdirmək lazımdır. Dövlət bunun üçün stimullaşdırıcı addımlar atır. Məsələn, ƏDV-nin geri alınması prosesi nağd ödənişlərdə 10 faizdirsə, kartla ödənişlərdə 15 faizdir. Sonra nağdsız alış-verişlər zamanı təqdim olunan bonus kartlara vəsaitin müəyyən faizi geri qaytarılır. Nağd alış-verişlərdə hər dəfə nə qədər qəpik-quruş itiririk, çox vaxt pulun kiçik qalığını geri almırıq. Bəzi yerlərdə pulu xırdalamaqda çətinlik çəkirlər və s. Amma təmassız ödənişlərdə belə problemlərlə üzləşmirik, hansısa əngəllə, vaxt itkisi ilə qarşılaşmırıq. Elektron ticarətin üstün cəhətləri həddindən artıq çoxdur".

**F.İbrahimov regionlarda bu sahədə axsamaların olduğunu deyib:** "Şübhə yox ki, yaxın dövrlərdə rayonlarımızda nağdsız ödənişlərin miqyası artacaq. Qeyd edim ki, bu işdə vətəndaş məsuliyyəti çox önəmlidir. Heç nəyə biganə yanaşmamalıyıq. Məsələn, mən bir neçə obyektdə "post-terminal yoxdur" sözünü eşitdikdə prinsipiallıq göstərərək alış-veriş etmədən oranı tərk etmişəm. Çünki bəzi yerlərdə ödənişlər nağd olsun deyə qəsdən post-terminalın olmadığını deyirlər. Belə məqamlarda vətəndaş müvafiq qurumun qaynar xəttinə məlumat verməlidir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Hər kəsə dərs olmalıdır

## "Hətta məmurun xidmət silahı ilə də foto paylaşması doğru deyil"



**Masallı Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru Adəm İsmiyevin "ov macərası" işdən azad edilməsiylə nəticələnib. A.İsmiyev və müavini Sakit Şahmarovun sosial şəbəkələrdə yayılan ov görüntüləri geniş müzakirələrə səbəb olub.**

Fotoda Adəm İsmiyev "Winchester"i, müavini Sakit Şahmarov isə avtomat silahı nümayış etdirir. Avtomat silahın mülki şəxslərə satılması qanunvericiliklə qadağandır. Adəm İsmiyev və Sakit Şahmarovun silahları necə əldə etməsi ayrı araşdırma mövzusudur. Amma A.İsmiyev silahlı fotosunu özü "whatsapp" statusunda paylaşıb. Allah adamı çaşdırdısa, bitdi. Ekologiya və Təbii Sərvətlər Nazirliyi avtomat silahla fotosu yayılan vəzifəli şəxslərlə bağlı qərar verib. "Qafqazinfo"nun sorğusuna cavab olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova bildirib ki, Masallı Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru Adəm İsmiyev işdən azad olunub. Müavini Sakit Şahmarov barəsində isə inzibati tənbeh tədbiri görülərək, sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib. Nazirlik rəsmisi əlavə edib ki, hər iki şəxs İnzibati Xətalar Məcəlləsinin 272.3-cü maddəsi ilə cərimə ediliblər. Xatırladaq ki, İXM-nin 272.3 maddəsi ov qaydalarının kobud şəkildə pozulmasını nəzərdə tutur (lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan olunmuş müddətlərdə, qadağan edilmiş alətlərlə və ya üsullarla ov edilməsi).

Ehtiyatda olan polkovnik Mahmud Hacıyev "Şərq"ə açıqlamasında qeyd etdi ki, odlu silahla foto paylaşmaq dövlət məmuruna yaraşmayan hərəkətdir:

- Bu şəxslər nazirliyin əməkdaşlarıdır, dövlət məmurlarıdır. Dövlət məmuru odlu silahla, ümumiyyətlə, silah kateqoriyasına aid vasitələrlə foto paylaşmamalıdır. Bu, səviyyəsizlikdir. Etik normalara, daxili intizam qaydalarına ziddir. Foto paylaşmaq cinayət deyil. Amma baxır necə foto paylaşırsan. Dövlət məmuruna yaraşmaz ki, hətta xidməti silahı varsa da, onunla fotosunu paylaşsın. Onlar barəsində lazımi ölçü götürülüb. Bu hadisə digər məmurlara, özünü cəmiyyətdən ayırmaq, etik ölçüləri pozmaqla fərqlənmək istəyənlərə dərs olmalıdır.

**Məlahət Rzayeva**





# Hüquq müdafiəçisi sərt reaksiya verdi

## "Qardaşı qızını qaçırana ömürlük həbs cəzası verilməlidir"

**Yevlaxda itkin düşən azyaşlı qızı əmisinin qaçırdığı məlum olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan Trend-in sorğusuna cavab olaraq bildirilib ki, dekabrın 13-də Yevlax rayon sakini İ.Mustafayevin qızı N.M. və qardaşı Elçin Mustafayevin itkin düşməsi ilə bağlı Rayon Polis Şöbəsinə etdiyi müraciətlə əlaqədar dərhal müvafiq tədbirlərə başlanılıb.**

Polis əməkdaşları tərəfindən bütün mümkün ehtimallar nəzərdən keçirilib və E.Mustafayevin qardaşı qızı N.M.-nı Bakı şəhərinə apardığı müəyyənləşdirilib. Keçirilmiş tədbirlərlə onların qaldıqları yer aşkar olunaraq Yevlax Rayon Polis Şöbəsinə gətiriliblər. E.Mustafayev barəsində həbs-qətimkan tədbiri seçilib. Faktla bağlı Yevlax RPŞ-də Cinayət Məcəlləsinin 150.3.3 (On dörd yaşına çatmayan şəxsə qarşı seksual xarakterli hərəkətlər etmə) və 152.2-ci (On dörd yaşına çatmayan şəxslə cinsi əlaqədə olma) maddələri ilə cinayət işi başlanılıb, istintaq davam etdirilir.

**İnsan Haqları və Qanunçuluğun Müdafiəsi Bürosunun rəhbəri, hüquq müdafiəçisi Səidə Qocamanlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, yetkinlik yaşına çatmamış qıza qarşı iyrənc əməl törədən şəxs ömürlük həbs cəzasına məhkum edilməlidir:**

- Azyaşlılara qarşı zorakılıq, cinsi istismar törədənlərin sərt şəkildə cəzalanması, ömürlük həbsə məhkum edilməli olduqlarını 3 gün əvvəl danışırdıq. İndi də belə bir iyrənc hadisə barədə məlumat verilir. Azğınlaşmış insanlara qarşı qanun çox sərt davranmalıdır. Belə şəxslər cəmiyyətə, ölkəyə, bütün insanlığa böyük təhlükədir. Lap öz qardaşı qızı, qohumu yox, yad biri olsun, azyaşlı uşağa qarşı belə iyrənc hərəkət edənə ancaq Əclaf, Alçaq adı verilir. Belə şəxslər ömürlük həbs cəzasına məhkum edilməlidir, Qobustan qapalı təcridxanasına göndərilməlidir ki, başqalarına da görk olsun. Yoxsa ki, hər cür iyrənc əməli törədəcəklər, bir neçə ildən sonra da əl-qolunu sallayıb azadlığa çıxacaqlar?!. Uşaqlara qarşı cinayətlər, seksual zorakılıq, əməyin istismarı, ümumiyyətlə, uşaq hüquqlarının tapdanması sərt cəzalanmalıdır və bu kimi halları törədənlərə qarşı ömürlük həbs cəzasının tətbiqi ilə bağlı Cinayət Məcəlləsinə mütləq dəyişiklik edilməlidir.

***"İmkan verməməliyik ki, 2-3 belə alçaq adam xalqımızın əsrlərlə qoruduğu qadın ləyaqəti, qadın namusuna təcavüz etsin, dəyərlərimizi tapdalasın"***

**S.Qocamanlı bildirdi ki, bu cür alçaq hərəkətlərin qarşısının alınması üçün adekvat addımlar atılmalıdır:**

- Burda mentalitet məsələsi var. İmkan verməməliyik ki, 2-3 belə alçaq adam xalqımızın əsrlərlə qoruduğu qadın ləyaqəti, qadın namusuna təcavüz etsin, dəyərlərimizi tapdalasın. Ona görə də Cinayət Məcəlləsinə ömürlük həbs cəzasıyla bağlı dəyişiklik təcili müzakirəyə çıxarılmalı və qəbul edilməlidir. İkincisi, ictimai nəzarət gücləndirilməlidir. Həm hüquq müdafiəçiləri tərəfindən, həm media tərəfindən. Üçüncüsü, Təhsil Nazirliyi şagird və valideynlərlə iş aparmalıdır. Mən uzun illər müəllim işləmişəm. Bizim əlimizə dəftər verib evlərə göndərirdilər. Hansı şagird dərsə gəlməyib, səbəbi nədir, dərsdən sonra valideyn uşağa nəzarət edə bilirmi? Ailənin yaşayışı necədir? Bunları öyrənməklə məktəb şagird barəsində lazımi məlumat əldə edirdi. İndi nəzarət zəifdir. Nəzarət deyəndə, elə başa düşülməsin ki, burda söhbət uşağın hüquqlarının məhdudlaşdırılmasından gedir. Xeyr. Nəzarət, uşaq haqqında məlumat əldə edilməsi üçün lazımdır. Sovet illərində məktəbin yerləşdiyi əraziyə uyğun polis şöbəsindən əməkdaş gəlirdi, şagirdlərin dərsdən yayınıb-yayınmadığını öyrənirdi, çünki o zaman da nəzarətsiz qalan, ailəsində problem olan uşaqlar vardı. İndi də belə tədbirlər görülməlidir. Valideyn uşağa nəzarət edə bilmirsə, məktəbə bildirməlidir. Məktəb uşaqla məşğul olmalıdır. İctimai nəzarət deyəndə həm də bunları nəzərdə tuturam.

**Məlahət Rzayeva**

# Məktəblərə, bağçalara indi də meyxana ayaq açır

## “Məktəb, şagird heç nəyin aləti olmalı deyil, bayağı meyxanalar ümumi təhsilin imicinə zərər vurur”

**Ötən həftə meyxanaçı Rüfət Nasosnu ”Nuray” uşaq bağçasına dəvət edilib. Onun ”Bağışla” mahnısı xorla ifa olunub. Bu da sosial şəbəkələrdə etirazla qarşılanıb. Kimisi meyxana təfəkkürünün bağçaya ayaq açmasına dair narahatlıq ifadə edib, kimisi də haqlı olaraq ”Niyə bağça və məktəblərə əsl ziyalılar deyil, məhz meyxanaçılar dəvət olunur” sualını ünvanlayıblar.**

*Mövcud durumla bağlı ”Şərq”ə danışan sosioloq Sahib Altay bildirib ki, elmdə cəmiyyəti formalaşdıran əsas beş amil var:* ”Bu amillər dil, təhsil, mədəniyyət, tibb və siyasətdən ibarətdir. Bunların hamısını öz içərisinə alan, tədqiq edən, ixtiralar həyata keçirən, nəzəriyyələr, düsturlar ortaya qoyan və bunu həm də praktiki keçid mərhələsində önə çıxarıb, sübut edən, nəticələrini göstərən sahə elmdir. Elmin də tədrisi təhsildə mümkündür. Təhsil cəmiyyətin aynasıdır. Dünyanın elə bir toplumu yoxdur ki, orada hamı savadlı olsun. Amma təhsildə ilkin şərt hər kəsin ən az orta məktəb təhsili almasıdır. Azərbaycan və bəzi ölkələrdə təhsilin mahiyyəti və məqsədi yanlış anlaşılır. Təhsilin əsas məğzi insanlara həyatı öyrətməkdir. Başlıca məqsəd insanlara öyrətdikləri peşə üzrə çalışıb, pul qazandırmaqdır. Əmək fəaliyyəti də bizim həyatımızın çox önəmli hissəsidir. Orada da həm maddi qazanc, həm də sosial-mənəvi tərəfi kimi peşə məsuliyyəti, peşə əxlaqı var. Bütün bunları təhsil təmin edir. Biliyin əsas modeli orta məktəb təhsilidir”.




*Sahib Altay: "Bunun qarşısını məktəb və ya təhsil müəssisələri qadağan edib, ala bilər"*

**S.Altay onu da əlavə edib ki, pedaqoqluq ikinci valideynlik peşəsidir: ”Belə bir el deyimi var. Övlad evin güzgüsüdür. Övlad öz üzərində valideynlərin ona verdiyi tərbiyəni və təhsili əks etdirir. Ailənin əsas fiquru olan valideynlərlə yanaşı məktəb dönəmində müəllim ana, ata rolunu oynayır.**

Müəllim ictimai simadır. Həm örnək, davranış, həm də təhsil baxımından şagird ondan təsirlənir. Məsələn, kilsə xristianlığın, monastr yəhudiliyin, məscid islamın, məhkəmə hüququn məbədidir. Həmçinin məktəb də təhsilin, elmin əsasını təşkil edir. Bu, orta məktəb, universitet, akademiya, hər hansı elmi tədqiqat üçün mərkəz də ola bilər. Yəni məktəb binası bir simvoldur.

Ümumiyyətlə, məktəb, şagird heç nəyin aləti olmalı deyil. Çünki dini təbliğatlar, bayağı meyxanalar ümumi təhsilin imicinə zərər vurur. Bunun qarşısını məktəb və ya təhsil müəssisələri qadağan edib, ala bilər. Bu yaxınlarda bir müğənni şagirdlər arasında dini mahnı oxuyub. Həmin insandan müsahibə götürülüb. O deyib ki, həmin videonu məktəbdə çəkməmişəm. Xüsusi bir yerdə partalar düzüb, uşaqlara da məktəbli geyimi geyindirib, təhsil ocağı mühitini yaradıb.

Fikrimcə, ona da icazə verilməməlidir. Şagirdlərə ictimai, milli, müasir dünya görüşünü, analitik qabiliyyəti, intellektual bazanı əks etdirən mədəniyyət, yaradıcılıq göstəricilərini danışmaq lazımdır. Eyni zamanda elmin bizə verdiyi reallıqlar mənimsədilməlidir”.

**Sücayət Mehti**

## Proqnozların heç biri özünü doğrultmayıb

Pediatr Vaqif Qarayev pandemiyanın gələn il bitəcəyinə inanmır



**Koronavirus pandemiyası gələn il başa çata bilər.**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri Tedros Adanom Qebreyesus keçirdiyi mətbuat konfransında deyib. Onun sözlərinə görə, bunun üçün ilin ortalarına qədər əhalinin 70 faizi COVID-19-a qarşı peyvənd olunmalıdır. ÜST rəhbəri deyib ki, ”pandemiyanın gələn il bitməsini istəyiriksə, gələn ilin ortalarına qədər bərabərsizliyə son qoymalı və hər bir ölkə əhalisinin 70 faizini peyvənd etməliyik”.

**Pandemiyanın bitəcəyi tarixlə bağlı ÜST rəhbərinin açıqlamasını ”Şərq”ə şərh edən pediatr Vaqif Qarayev bu səpkili açıqlamaların indiyədək çox eşidildiyini dedi:**

- 2 ildir proqnoz verilir. Bu proqnozların heç biri özünü doğrultmayıb. Kim nə deyir, desin, mən inanmıram. ”Omicron” variantı ilə bağlı isə narahatlıq doğuran hal budur ki, xəstəliyin gedişatındakı fərqlilik yox, peyvəndlərin təsirsiz olduğu daha çox vurğulanır. Bu da açığı, inamsızlıq yaradır. Çin bütün əhalisini CinoVacla peyvəndləyir. Heç bir təhlükəli gedişat da yoxdur orda. Peyvənd kömək etmirsə, onlara da etməsin. Mən peyvəndin tərəfdarıyam, istəyirəm hamı peyvənd olunsun.

**Məlahət**

# Azərbaycanda təkuşaqlı ailələrin sayı artır

## “Demoqrafik təhlükənin astanasındayıq”

**”Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil” sosioloji sorğu-tədqiqatının nəticələri açıqlanıb. Bildirilib ki, son illərdə ölkə üzrə doğum səviyyəsinin aşağı düşməsi müşahidə olunur. Əksər ailələr bir uşaqla kifayətlənir: ”Təkuşaqlı ailələrin artmasının sosial-psixoloji səbəbləri də ön sıralardadır. Ailədə uşaqların sayının azalması ailənin reproduktiv və tərbiyə funksiyalarının müəyyən qədər pozulmasına dəlalət edir. Müasir dövrdə uşaq böyütmək, hərtərəfli təhsil vermək, gələcəyini təmin etmək çətindir. Təkuşaqlı ailədə uşaq valideynlərin əzizlədiyi yeganə qayğı və diqqət obyektinə çevrilir, bu da çox hallarda uşağın müstəqillik və yetkinlik şüurunun formalaşmasının gecikməsinə səbəb olur”.**

Nəticələrdə, eyni zamanda, Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulması əks olunub: ”Qız uşaqlarının seleksiya abort edilməsi nəticəsində doğuş üzrə təbii cins balansının pozulması yönündə təəssüfedici tendensiyada ölkəmiz ”dünya birincisi olmağa doğru gedir”.

Sosioloji sorğu-tədqiqatının nəticələri ölkəmizin demoqrafik təhlükə ilə üz-üzə durduğunu bir daha göstərdi.

*Bəs, bunun qarşısını almaq üçün hansı tədbirlər görülməli və maarifləndirmə işi necə aparılmalıdır?*

**İqtisadçı-ekspert Rəşad Həsənov mövcud demoqrafik təhlükədən ”Şərq”ə danışarkən bildirib ki, artıq böyük ailələrdən kiçik ailələrə doğru müasir yaşam tərzi formalaşır:** ”Bu qlobal səviyyədə olan problemdir. Azərbaycana da ayaq açıb. Hazırda insanlar həyata nisbətən fərqli baxır. Onlar dünyaya gətirdikləri yeni fərdlər üçün məsuliyyət hiss edir, onun təhsili, keyfiyyətli qidalanması, ona yaxşı yaşayışın bəxş edilməsinə görə öhdəlik daşıyırlar. Bütün bu öhdəliklər ölkəmizdə dolayısıyla kiçik ailələrin formalaşması istiqamətində meyli gücləndirir”.

İqtisadçı-ekspert hökumətlərin apardığı sosial-iqtisadi siyasətlərin də məsələyə təsir etdiyini söyləyib və bəzi statistik rəqəmləri diqqətə çatdırıb: ”Uşaq pulunun verilməməsi, ailələrin sosial təminatının zəif olmasına gətirib çıxaran sosial-iqtisadi siyasətlər də bu qəbildəndir. Azərbaycanda da prosesə bunların hamısının təsiri hiss olunur. Hökumət isə demoqrafik problemin astanasında olduğunu qəbul etmək istəmir. Amma rəqəmlər tam əksini göstərir. Misal üçün, 1990-cı illərdə hər min nəfərə 20,5 uşaq doğulurdu.



*Rəşad Həsənov: "Hazırda insanlar həyata nisbətən fərqli baxır"*

Bu gün bu say 8,4-ə düşüb. Belə templə davam etdikdə bu say 2050-ci illərdə 3,5 olacaq. Bu o deməkdir ki, artıq ciddi problem var. Hazırda ölkədə 2 milyon 500 mindən artıq ailə institutunun təxminən 1 milyon 146 mini bir uşaqlı ailələrdir. Bu, hökumətə siqnaldır. Bütün bunlar hökumətin daha hədəfli, demoqrafik və insan kapitalı aspektindən maraqların birləşdirmiş kompleks siyasət həyata keçirməsi zərurətini yaradır”.

**R.Həsənov biruşaqlı ailələrin sayının artmasının dolayısıyla gender bərabərliyinin pozulmasına gətirib çıxardığını vurğulayıb:** ”Ailələr istəyirlər ki, bir uşaqları olacaqsa, o, oğlan olsun. Beləliklə, gender balansının pozulması istiqamətində də daha bir proses başlamış olur”.

**Ekspert bu xüsusda maarifləndirmə işinə diqqət çəkib:** ”İnsanlar rasionaldır. Ölkədəki hazırkı yaşam şəraitini, təhsili, iqtisadiyyatı, uşaq pulu məsələsini və s . hər bir nüansı nəzərə alsalar, təbii ki, ailədə çox uşağın olmasını da istəməyəcəklər. Burada maarifləndirmə işin sadəcə bir qismidir. O aspektdən maarifləndirmə aparıla bilər ki, övladın qız və ya oğlan olmasının heç bir fərqi yoxdur. Amma ailədə uşaqların sayının çox olması baxımından real və təşviqedici mexanizmlər olmalıdır. Əks halda bu istiqamətdə heç bir müsbət nəticəyə nail olmaq mümkün olmayacaq”.

**Günəş Mərd**


**Elan**

Azərbaycan Respublikası QSC-nin (Qapalı Səhmdar Cəmiyyəti), AzTV-nin Televiziya və Radio Verilişləri müxbiri Gülnar İlqarqızı Rəhimovanın xidməti vəsiqəsi itdiyi üçün etibarsız sayılır.



**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# Azercell Biznes korporativ müştəriləri üçün vebinarlar təşkil edib




**Hər zaman korporativ müştərilərinin inkişafına yönəlik təşəbbüsləri dəstəkləyən Azercell Biznes bu istiqamətdə növbəti uğurlu layihə gerçəkləşdirib. Bu dəfə ”Azercell Biznes Klubu”nun üzvlərinə iki önəmli mövzu üzrə onlayn vebinarlar keçirilib.**

”Liderlik” və ”Müştəriyə yönəlik xidmət mədəniyyəti” mövzularına həsr edilmiş vebinarlara 100-dən çox iştirakçı qatılıb. Onlar arasında dövlət orqanları ilə yanaşı, özəl şirkətlər, kommersiya qurumları, maliyyə təşkilatlarının təmsilçiləri də olub. Vebinarlar sürətlə dəyişən müasir işgüzar aləmdə şirkətlərin effektiv liderliyi və transformasiyasına fokuslanmışdır.

İlk vebinar - ”Liderlik” təlimində uğurlu rəhbər olmaq üçün vacib amillər, effektiv liderin əsas xüsusiyyətləri, komandanın motivasiyası və inkişafına aparan addımlardan bəhs olunub. İştirakçılara həmçinin, iş qrupunu real komandaya çevirmək texnikası, əməkdaşın fəaliyyətinin nəticələrinin ölçülməsi və hədəflərin müəyyən edilməsi, digər əməkdaşlarla kommunikasiyanın düzgün qurulmasına dair bilgilər verilib.

”Müştəriyə yönəlik xidmət mədəniyyəti” mövzusuna həsr edilmiş vebinarda isə müştəri məmnuniyyətini qazanmağın yolları barədə məlumat təqdim olunub. Müştəriyə yüksək keyfiyyətli xidmətin göstərilməsi üçün zəruri olan əsas davranışlar, effektiv ünsiyyətin vacib şərtləri vurğulanıb. Müştəri məmnuniyyəti sahəsində mükəmməlliyə nail olmaq, xidmət səviyyəsini yüksəltmək, müraciətlərin cavablandırılmasına dair standartlar haqqında bilgilər də iştirakçıların diqqətinə çatdırılıb.

Online vebinarlar ”Azercell Akademiyası”nın aparıcı mütəxəssisi Aynur Abbasova və Akademiyanın dəvət etdiyi təlimçi, məslərhətçi və kouç Lalə Əbdürəhmanova tərəfindən təqdim edilib. Təlimçilər mövzularla əlaqəli iştirakçıların çoxsaylı suallarını cavablandırıblar.

Uzunmüddətli uğurlu fəaliyyət tarixinə malik Azercell Biznes tərəfdaşlarının inkişafını dəstəkləyən xidmətləri təqdim edir, onlara ölkənin istənilən yerindən bizneslərini effektiv və rahat şəkildə idarə etməklə müştərilərinə yüksək xidmət göstərmək imkanı yaradır. Korporativ müştərilərinin inkişafı və rəqəmsal transformasiyasına hər zaman önəm verən Azercell Biznes bu kimi fəaliyyətini müxtəlif istiqamətlərdə davamlı olaraq həyata keçirəcək.

”Azercell Biznes” barədə ətraflı məlumat üçün https://www.azercell.com/az/corporate.html səhifəsinə müraciət edə və ya Azercell-in korporativ müştəriləri üçün nəzərdə tutulan Telefon Mərkəzi (*6050) ilə əlaqə saxlaya bilərsiniz.

**Son günlərdə Azərbaycanda 2 qız qaçırma hadisəsi qeydə alınıb. Birinci hadisə Yevlaxda baş verib. Elçin Musayev adlı şəxs 13 yaşlı qardaşı qızını qaçırıb. Faktla bağlı Yevlax Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin 150.3.3 (On dörd yaşına çatmayan şəxsə qarşı seksual xarakterli hərəkətlər etmə) və 152.2-ci (On dörd yaşına çatmayan şəxslə cinsi əlaqədə olma) maddələri ilə cinayət işi başlanılıb.**



# Qaçırılma hadisələrinin artması böyük dərddir

## Yalnız cəza tədbirləri ilə nəticəyə vara bilməyəcəyik

Digər qaçırılma hadisəsi isə Ağdamda yaşanıb. İmamqulubəyli qəsəbə tam orta məktəbinin 10-cu sinif şagirdi G.M. məktəbdən qayıdarkən qaçırılıb. Keçirilmiş tədbirlərlə həmin qız tapılaraq ailə üzvlərinə təhvil verilib. O, izahatında evlənmək məqsədi ilə öz razılığına əsasən getdiyini bildirib. Faktla bağlı Ağdam RPŞ-də araşdırma aparılır.Belə hadisələrin artması cəmiyyətdə ciddi narahatlığa doğurur. Çıxış yolu olaraq nə etməliyik? Cəzalandırma, yoxsa maarifləndirmə?

***“Məktəblərdə təlim-tərbiyə işləri acınacaqlı durumdadır”***

**Suallarımızı cavablandıran sosioloq-alim Əhməd Qəşəmoğlu ”Şərq”ə bildirib ki, hadisələrin çoxalmasının başlıca səbəbi məsələlərə birtərəfli yanaşmağımızdır:** ”Cəmiyyət elə vəziyyətdədir ki, təkcə maarifləndirmə və cəzalandırma ilə bunun qarşısını almaq olmaz. Təbii ki, bu insanlar haqqında cəza tədbiri də lazımdır. Amma biz bu məsələdə yalnız hüquq-mühafizə orqanlarının üzərinə də düşə bilmərik.

Cəmiyyət olduqca həssaslaşıb və mürəkkəbləşib. Hüquq-mühafizə orqanları ilə yanaşı, başqa ictimai təşkilatlar və təhsil müəssisələri bu işlə məşğul olmalıdır. Bu səbəbdən kompleks işlər görülməlidir”.

**Sosioloq bu vəziyyətdə təhsilin önəmindən də danışıb:**

”Bu məsələ ətrafında geniş maarifləndirmə işləri də olmalıdır. Yalnız cəza ilə cəmiyyətimizdə bir nəticə hasil olmur. Biz çalışmalıyıq ki, bu hadisələrin elmi səbəblərini araşdıraq və həmin insanların sosial psixoloji portretlərini hazırlayaq. Təhsil sistemində bu barədə böyük işlər aparılmalıdır. Çünki təhsil sistemi elə bir vəziyyətdədir ki, orada lazımi səviyyədə təlim-tərbiyə həyata keçirilmir. Şagirdlər lazımi səviyyədə həyata hazırlanmır”.

**Çimnaz Şahlar**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15, İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2737




## Küçə itləri yeni doğulmuş körpənin həyatını xilas etdi

İtlər uşağı mühasirəyə alaraq bədənlərini ona sıxıb və körpənin donmasının qarşısını alıblar

**Hindistanda sahibsiz itlər yeni doğulmuş və küçəyə atılmış qız uşağını xilas ediblər.**

Belə ki, gecə vaxtı heyvanlar yerli sakinlər köməyə gələnə qədər körpənin soyuqdan donmasına imkan verməyiblər.

Oxu.az xəbər verir ki, hadisə Hindistanın Çhattisqarh ştatında qeydə alınıb.

Yerli sakinlər bildirir ki, itlər yeni doğulmuş uşağı mühasirəyə alaraq bədənlərini ona sıxıb və körpənin donmasının qarşısını alıblar.

Səhər saatlarında ətrafda yaşayan sakinlər yüksək səslə ağlayan körpəni götürərək polisə xəbər veriblər. Hüquq-mühafizə orqanlarının əməkdaşları körpəni həkimlərə təhvil veriblər. Həkimlərin sözlərinə görə, körpənin həyatı üçün təhlükə yoxdur.

## Kağızdan bayram paltarı düzəltdi

Qısa müddətdə sosial şəbəkədə məşhurlaşdı



**Bloqer əl altında olan əşyalardan bayram paltarı yaratdı və bununla da sosial şəbəkədə məşhurlaşdı.**

Model olan Madlen Uayt başqa qızların videolarından ilhamlanaraq hədiyyə kağızından paltar tikməyə qərar verib. Oxu.az xəbər verir ki, videonun sonunda o, əl işini göstərib.

**Abunəçilər bloqqerin işinin nəticəsindən heyranlıqlarını bildiriblər:**

"Çox istedadlısınız", "Şokdayam, mass-marketdən daha yaxşı görünür", "Möhtəşəm görünürsünüz", "Təəccüblənirəm, çünki paltar həqiqətən gözəl görünür", "İstedad", - deyə istifadəçilər bildiriblər.

## Təbrizli qadından dünya rekordu

**17 tonluq avtomobili dartdı**



**Təbrizdə Giti Musəvi adlı qadın 17 tonluq yük maşınını 30 metr məsafəyə dartaraq yeni rekorda imza atıb. Trend-in məlumatına görə, bu idman növü üzrə qadınlar arasında əvvəlki dünya rekordu 12 ton olub.**

**G.Musəvi bildirib ki, uzunmüddətli məşqlərdən sonra bu göstəriciyə nail olub: "Mənim məqsədim onu göstərməkdir ki, insan hətta qadın olsa belə, iradəsi ilə hər bir işin öhdəsindən gələ bilər", - deyə idmançı bildirib.**

## Çində dinozavra aid yumurta tapılıb



**Alimlər Çinin cənubunda yırtıcı dinozavr-oviraptorun yaxşı qorunub saxlanmış fosilləşmiş yumurtasını aşkar ediblər.**

**"Report" xəbər verir ki, bu barədə "Science" jurnalında məqalə dərc edilib.**

**Onun embrionu xarici görünüşünə görə müasir quşların embrionlarına bənzəyir. Bundan əvvəl tədqiqatçılar Çinin şimalı və Monqolustanda, Qobi səhrasında bir neçə böyük "yumurta qəbiristanlığı", Cənubi Amerikada planetin ən böyük dinozavrlarının onlarla yumurtasını aşkar ediblər. Araşdırma göstərir ki, bir çox dinozavrlar quşlar kimi yuva quran və yumurta çıxara bilən canlılar olub. Xüsusilə, elm adamlarının fosil adlandırdıqları yumurtaların toyuqların və bir çox digər quşların embrionları kimi kiçik lələklərlə örtüldüyü müşahidə edilib. Oviraptorlar quşların əcdadlarının uzaq qohumları hesab edilir.**

## 264 milyon dollar dəyəri var

**Abramoviç bu dəfə dünyanın ən bahalı təyyarəsini aldı**




**Tanınmış rus iş adamı Roman Abramoviç dünyanın ən bahalı təyyarəsini satın alıb.**

**Axşam.az xəbər verir ki, milyarderin "Boeing 787-8 Dreamliner" adlı hava nəqliyyatına 264 milyon dollar verdiyi bəlli olub. İlkin qiyməti 250 milyon dollar olan təyyarənin bu qiymətə başa gəlməsinin səbəbi Romanın onda bəzi dəyişikliklər edilməsini istəməsi olub. "Daily Mail" nəşrinin məlumatına görə, İsveçrənin Bazel şəhərində son işləri görülən təyyarə dekabrın 18-də artıq Moskvaya uçub.**

***Qeyd edək ki, milyarder daha əvvəl ən bahalı super yaxta üçün ("Solaris") 1,2 milyard dollar xərcləyib. O, bahalı avtomobil kolleksiyaçısı kimi də tanınır.***



# Yaşadıqları qan dondurur

Dünya onun üçün ayağa qalxdı




**Məlahət Rzayeva**

**İraqlı qız - 16 yaşlı Məryəm əl-Rikabi müalicə olunmaq üçün Türkiyəyə gəlmək istəyir. İraqda Gözəl Sənətlər İnstitutunda təhsil alan Məryəm bir müddət əvvəl üzü maskalı şəxsin təcavüzünə məruz qalıb.**

Təcavüz edənin Məryəmə evlilik təklifi etmiş, lakin qız və ailəsi tərəfindən elçiliyi rədd edilən 19 yaşlı gənc olduğu müəyyənləşib. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, təcavüzkar 7 ay sonra yaxalanıb. Məlum olub ki, həmin şəxs Məryəm yaşayan evə gizlicə daxil olaraq qızın üzünə sulfat turşusu (kislota) töküb. Qızın üzü yanıb. Oğlan evə daxil olduğu vaxt Məryəm yatırmış. Qız hadisəni bu şəkildə danışıb: "Yuxudaydım. Vücudumun alışıb yandığını hiss etdim. Ayağa qalxdım, salona keçəndə bir nəfərin evimizdən çıxdığını gördüm. Onu görəndə qışqıraraq küçəyə qaçdım". Məryəmin atası və anası həmin gün işdə imiş, Məryəm evdə qardaşı və gəlinləri ilə birlikdəymiş. Məryəmin anası "təcavüzkar maskalı halda təhlükəsizlik kameralarının önündən keçib, amma kimsə onu dayandırmayıb. Bu adam evimizə telefon açır, bizi narahat edirdi. Biz də qızımızla evlənmək təklifini rədd etdik. Qızıma da mesajlar atırdı, Məryəm isə ona "biz dostuq, səninlə evlənə bilmərəm" cavabını verirdi", deyib.

### *16 yaşlı Məryəm Türkiyədə müalicə olunacaq*

Məryəmin görüntülərini izləyən sosial şəbəkə istifadəçiləri "Məryəmi xilas edək" dəstək mesajları yazaraq gənc qızın müalicə alması üçün yardım kampaniyası başladıblar. Məryəmin ailəsi müalicə üçün Türkiyəni seçib. Ailənin yeganə istəyi qısa zamanda Türkiyəyə səfər etməkdir. Məryəmin adına artıq 91 min 254 dollar ianə toplanıb. Kampaniya davam edir və hədəf 200 min dollar toplanmasıdır.

# Şakiranın bilinməyən həqiqətləri...

Spirtli içki, qəhvə və siqaretdən uzaqdır



### *Müğənni rəqsləri ana nənəsindən öyrəndiyini deyib*

**Səsi, füsunkarlığı, cazibəli rəqsləri ilə milyonların sevimlisi olan, dünya şöhrətli Şakira haqqında bilinməyən həqiqətləri öyrənəcəksiniz. "Şərq" "Milliyet.com"a istinadən Livan əsilli kolumbiyalı müğənni Şakiranın gizli qalmış şəxsi həyatı barədə gizlinləri açıqlayır. Şakiranın əsl adı çox uzundur - Şakira İsabel Mebarak Ripoll. Dünya isə onu qısa adıyla - Şakira olaraq tanıyır.**

Yaxınları, ailəsi isə lap qısaca - Şaki, çağırır. Şakiranın tam doğma bacı-qardaşı yoxdur. 8 bacı-qardaşının anası Şakiranın atasının birinci evliliyindəndir. Adları Ana, Lucsi, Patricia, Alberto, Moises, Tonino və Robin. Tonino Şakiranın həm də meneceridir. Şakira uşaqlıqdan çox hərəkətli və ağıllı olub. 4 yaşında olarkən ilk şeirini yazıb. Şeirin adı "Kristal gül" olan bu şeir Şakira müğənniliyə başladıqda mahnıya dönüb. Maraqlı və qəribə görünən faktlardan biri budur ki, Şakira 2-ci sinifdə təhsil alarkən musiqi müəllimi onu məktəb xoruna qəbul etməyib, deyib ki, "səsin keçinin səsinə oxşayır". Böyüdükcə Kolumbiyada getdikcə tanınan müğənni oldu, 13 yaşında "Sony" şirkəti onunla musiqi albomu ilə bağlı müqavilə imzaladı. Bunu bilən musiqi müəlliminin istefa verib-vermədiyini bilmək də maraqlı olardı. Bəlkə də Şakiranın səsi xora uyğun gəlməyib. O, dünya səhnəsini təkbaşına fəth edəcəkmiş! Şakira 5 xarici dil bilir: portuqal, ispan, italyan, ingilis və ərəb dillərini. Şakiranın musiqi həyatında yolları məşhur Rikki Martinlə də kəsişib. 1993-cü ildə bir müsabiqəyə qatılan Şakiranı o zaman münsiflər heyətində təmsil olunan Rikki Martin bəyənib. Şakira həm də cazibədar göbək rəqslərinin mahir ifaçısı kimi tanınır. Müğənni bu rəqsləri ana nənəsindən öyrəndiyini deyib. Genində varmış demək ki. Şakira 2007-ci ildə başqa bir məşhur ifaçı Beyonsla işbirliyi gerçəkləşdirib. İki məşhur ifaçının "Beautiful Liar" mahnısı dillər əzbəri olub. Şakira "metallica" stilində mahnılar ifa etməyi də sevir. Amma heyrətləndirən xəbər budur ki, Şakira məşhur yazıçı, Nobel mükafatçısı Qabriel Qarsia Markesin təklifini rədd edərək "Xolera günlərində eşq" romanındakı Love xarakterinə film həyatı verməkdən, bu rolun ifaçısı olmaqdan imtina edib. Filmdə Love obrazı bəzi səhnələrdə çılpaq görünməliymiş. Şakira məhz buna görə roldan imtina edib və belə deyib: "Senari, xarakter, rejissor - hər kəs və hər şey mənim təhlükəsizliyimin qorunmasına hesablanmalıdır. Xalqa qarşı bir məsuliyyətim var. Uğursuz ola biləcək bir işə əsla baş qoşmaram". Şakira Oskar mükafatçısı, Hollivud məşhuru, rejissor Stiven Spilberqin 1998-ci ildə "Zorro" filmində çəkilmək təklifini də rədd edib. Şakiranın rədd etdiyi təklifi Ketrin Zeta Cons sevə-sevə qəbul edib. Şakiranın şəxsi həyatı da maraqlıdır. İfaçı argentinalı vəkillə 11 il sevgi münasibətləri yaşayıb. Lakin ayrılıblar. Hazırda isə Şakira klip çəkilişləri zamanı tanış olduğu ispaniyalı futbolçu Gerard Pique ilə birlikdədir. Hər iki sevgilisinin doğum tarixi 2 fevraldır. Şakira 1997-ci ildə Kolumbiyada yoxsul uşaqların təhsil aldığı bir məktəb üçün yardım dərnəyi qurub. Şakira "müğənni olmasaydım, psixiatr, ya da astromon olardım" deyib. Rəsm çəkməyi sevir. Yumurta boyamaqdan zövq alır. Spirtli içki, qəhvə və siqaretdən uzaqdır. Bədənində bir dənə də tatuaj yoxdur. Örnək aldığı sənətkar Latın Amerikasının əfsanəvi ismi Qloriya Estefandır. Sevdiyi rənglər - qara və ağ. Ərəbistan mətbəxini, şirniyyat və şokoladı çox sevir. Qolf, tennis, basketbol oynamağı və üzməyi də sevir.

**Hazırladı: Məlahət**

## Qarabağda daha müharibə olmayacaq

Səhiyyə və təhsil sahəsində istefalar, həbslər gözlənilir




### *Astroloq Səbuhi Rəhimli 2022-ci ilin proqnozlarını açıqlayıb*

**Artıq 2022-ci ilin gəlməsinə sayılı günlər qalıb. Hər kəs yeni ili səbirsizliklə gözləyir. Eyni zamanda təntənə ilə qarşılayır. İnsanlar üçün növbəti ilin nələr vəd edəcəyi maraqlıdır. Bütün sferalarda baş verəcək dəyişikliklər sual doğurur.**

Yeni ilə arzuları ilə bağlı ümid bəsləyirlər. Həmçinin pandemiyanın gələcəyi bütün dünyanı narahat edən məsələlərdəndir.

**Növbəti il barədə proqnozlarını "Şərq"lə bölüşən "Qoroskop" qəzetinin baş redaktoru, astroloq Səbuhi Rəhimli bildirib ki, qarşıdan qara, su ünsürlü pələng ili gəlir:** "Fevralın 1-i başlayıb, 2023-cü ilin 23 yanvarında bitəcək. Bu aralıq Çin təqvimi əsasında hesablanır. Pələng illəri ümumiyyətlə dünyanın dəyişməsinə, qlobal hadisələrin baş verməsinə səbəb olub. 100 ilik müharibə, tarix boyu baş verən dünya müharibəsi pələng ilinə təsadüf edib. Həmçinin Çernobıl kimi dəhşətli partlayış da həmin ildə yaşanıb. Faciə 7 milyon insanın həyatına son qoyub. Bəzən 10 milyon da deyirlər. Tanınmışlara qarşı siyasi çevrilişlər, sui-qəsdlər gündəmdə olur. Dünyanın yenidən bölüşdürülməsi və ən əsası dünya güclərinin qarşıdurmasına zəmin yaradan bir ildir. Belə olan halda müharibələr, iğtişaşlar, hökumət dəyişiklikləri baş verir. Ərəb coğrafiyasında bir zamanlar Hüsnü Mübarək, Muəmmər Qəddafi, Səddam Hüseyn, Hafiz Əsəd kimi diktatorlar hakimiyyətə gətirilib. Onların aşırılması da pələng ilinə düşür. Yeni bir era yaranıb, zamanı çatıb, hər birini uzaqlaşdırıblar. Bu gedişat doğrudan da çaxnaşmalı bir dönəmdir".

Astroloq bunu da əlavə edib ki, elm, texnologiyanın inkişafı ilə tibdə qeyri-adi ixtiralara şahid oluruq:

"Pələng ili narahat olmağı ilə yanaşı həm də inkişafa xidmət edən bir dönəmdir. İlin aparıcı bürcləri qoç və əqrəbdir. Sosial sferada iğtişaşların olacağı dövrdür. Çünki bu ildə insanlar öz haqqını tələb etməyə qalxırlar. Bu da sonda gəlib hakimiyyət dəyişikliklərinə də səbəb ola bilər. Həm də hər zaman dediyim kimi, 1991-ci ildən dünya təmirə dayanıb, 2023-cü ildə bitəcək. 2023-cü ilə bir il qaldığı üçün bu il dünyanın siyasi, hərbi, coğrafi mühitində böyük dəyişikliklərə şahid olacağıq".

S.Rəhimli vurğulayıb ki, Azərbaycana gəlincə, gələn il səhiyyə və təhsil istiqamətində müəyyən istefalar, həbslər olacaq:

"Qarabağda hər hansı müharibəni istisna edirəm. Bunu ötən il də diqqətə çatdırmışdım. Xırda antiterror əməliyyatları hələ müharibə demək deyil. Pandemiya isə ilin ikinci yarısından çox sürətlə azalmağa doğru gedəcək. İlin sonuna kimi 20 faizə qədər enəcəyini hesab edə bilərik".

**Sücayət Mehti**